QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 240 (5712) **19 dekabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanda səhiyyənin inkişafına dövlət qayğısı gücləndirilir

*Prezident İlham Əliyev Bakıda Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*

Səh 2




Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusu əsaslı bərpa və yenidənqurmadan sonra açılıb



3

Polşanın “Ambasador” jurnalı: “Azərbaycan Avropaya doğru”



4

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Pekində Azərbaycan-Çin dostluq konserti keçirilib



5

Milli Məclisin növbəti plenar iclası keçirilib



7

Siyavuş Novruzov: “Biz niyə susmalıyıq?”



7

Ömrünü elmə həsr edən böyük alim



10

10

“Mənəvi dəyərlərə dövlət qayğısı İlham Əliyev siyasətinin tərkib hissəsi kimi”



13

Vidadi İsgəndərlinin xatırlamaq istəmədikləri: Qızı zorlaması, satqınlıq, əyyaşlıq və...



14

Ermənistan dini münaqişə astanasında



# Azərbaycanda səhiyyənin inkişafına dövlət qayğısı gücləndirilir

## *Prezident İlham Əliyev Bakıda Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 18-də Səhiyyə Nazirliyinin Bakıdakı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.***



AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, bu binada 1934-cü ildə Bakı Şəhər Səhiyyə Şöbəsinin nəzdində Balneofizioterapiya İnstitutu yerləşib. İki il sonra isə bu institutun bazasında Azərbaycan Dövlət Kurortologiya və Fizioterapiya İnstitutu yaradılıb. 1988-ci ildə bu institut Naftalan şəhərindəki problem laboratoriyası ilə birləşdirilərək Elmi-Tədqiqat Tibbi Bərpa və Təbii Amillərlə Müalicə İnstitutu adlandırılıb. 1999-cu ildə isə bu tibb müəssisəsinin adı profili və fəaliyyətinə uyğunlaşdırılaraq Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutuna dəyişdirilib.



Azərbaycanda bütün sanatoriya və kurort müəssisələrinin elmi cəhətdən əsaslandırılması, orada aparılan müalicə bu institut tərəfindən hazırlanmış elmi-metodiki tövsiyələr əsasında aparılır. İnstitutda konsultativ poliklinika, stasionar, diaqnostik tədqiqatlar və fiziki üsullarla müalicə şöbələri fəaliyyət göstərir. Tibb ocağının stasionar hissəsində terapiya, artrologiya və nevrologiya bölmələri olacaq. Diaqnostik tədqiqatlar bölməsində 3 laboratoriya yaradılıb. Kliniki-immunologiya, biokimyəvi və kliniki neyrofiziologiya laboratoriyalarında ən müasir avadanlıq quraşdırılıb. Bu avadanlıq laborator müayinələri qısa müddətə, həm də keyfiyyətlə aparmağa hərtərəfli imkan verir. Müalicəvi şöbələrə isə Naftalan nefti ilə müalicə, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin müalicəvi bədən tərbiyəsi kabineti aiddir. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutundakı oftalmoloq, stomatoloq, terapevt, USM, EKQ, balneoloji vanna və digər otaqlar da müasir tibbi avadanlıqla təchiz olunub.

İnstitutun elm bölməsində 43 elmi işçi, klinika bölməsində 43 həkim, 76 tibb bacısı və 118 nəfər digər işçi olmaqla, burada ümumilikdə 280 nəfər çalışır. İşçilərin 20 nəfəri fəlsəfə doktoru, 3 nəfəri tibb elmləri doktoru, 2 nəfəri professor, 1 nəfəri isə professor, Əməkdar elm xadimi olmaqla AMEA-nın müxbir üzvüdür. Sonra dövlətimizin başçısı müəssisənin kollektivi ilə görüşüb:

- Bu gün biz Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əsaslı təmirdən sonra açılışını qeyd edirik. Bu münasibətlə institutun kollektivini ürəkdən təbrik edirəm. Bu gözəl hadisə münasibətilə bütün xalqımızı təbrik edirəm. Çünki bu institutun Azərbaycanda xüsusi yeri vardır. Təxminən bir əsrə bərabər ömrü olan bu bərpa mərkəzinin yenidənqurmadan sonra indi ikinci həyatı başlayır. Mən indi buradakı stendlərdə binanın əvvəlki vəziyyəti, tikinti zamanı çəkilmiş şəkilləri ilə tanış oldum. Onlar çox böyük maraq doğurur. Hələ 1925-ci ildə institutun tikintisi ilə bağlı müvafiq göstəriş verilmişdir. Bu institut 100 ilə yaxın müddət ərzində Azərbaycan sakinlərinə xidmət göstərmişdir. Siz - burada işləyənlər yaxşı bilirsiniz ki, bu institutun ölkəmizin səhiyyə sistemində xüsusi yeri var. Bilirəm, təmir zamanı vətəndaşlar gözləyirdilər ki, bu institut tezliklə açılsın və onun imkanlarından istifadə olunsun. Əlbəttə ki, bu gün burada yaradılan müasir şərait ən yüksək standartlara cavab verir. Həm təmir-tikinti işləri çox böyük peşəkarlıqla, zövqlə aparılıb, həm də burada quraşdırılan müasir avadanlıq, əlbəttə, xəstələrə ən yüksək səviyyəli xidmət göstərəcəkdir. Bu gün öz sağlamlığını bərpa etmək istəyənlər mütləq buraya gəlib şəfa tapacaqlar.



Bu institutun binası həm də çox gözəl memarlıq abidəsidir. Binanın həm xarici görünüşü, həm daxili dizaynı göz oxşayır. İnstitutun sahəsi də çox böyükdür, 14 min 600 kvadratmetr sahədə yerləşir. Yenə də demək istəyirəm ki, burada ən yüksək səviyyədə xidmət göstəriləcəkdir. Bu, bir daha ölkəmizin səhiyyə sahəsinə göstərdiyi diqqətin təzahürüdür. Bu, bir daha onu göstərir ki, insanların sağlamlığı bizim üçün ən əsas vəzifədir. Təsadüfi deyil ki, son 15 il ərzində təqribən 650-yə yaxın tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib, bax, bu səviyyədə təmir olunub. Bu gün ölkəmizin istənilən yerində yüksəkkeyfiyyətli tibbi xidmət almaq mümkündür. Demək olar ki, mərkəzi şəhər və rayon xəstəxanalarının tikintisi və əsaslı təmiri prosesi başa çatır, bir neçə xəstəxana öz açılışını gözləyir. Əminəm ki, yaxın 1-2 ildə bu məsələ də öz həllini tapacaq. Bu, ölkəmizin səhiyyə sisteminə verilən çox böyük töhfədir. Çünki bu gün hər bir şəhərdə, rayonlarımızın mütləq əksəriyyətində ən müasir standartlara cavab verən tibb müəssisələri fəaliyyət göstərir və vətəndaşlara xidmət edir. Əgər buna nail olmasaydıq, əgər səhiyyə sahəsinin maddi-texniki bazasını yaratmasaydıq, biz bu gün apardığımız siyasəti apara bilməzdik. Çünki bu gün sosial siyasətin tərkib hissəsi olan səhiyyə sahəsindəki islahatlar, qoyulan investisiyalar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, Azərbaycanda yüksək səviyyəli tibbi xidmət ala bilsinlər. Bildiyiniz kimi, son illərdə bütün ölkə üzrə 5 milyondan çox Azərbaycan vətəndaşı hər il pulsuz tibbi müayinədən keçir və aşkar edilən xəstəliklər müalicə olunur. Azərbaycan nadir ölkələrdəndir ki, belə genişmiqyaslı sosial layihə icra edilir. Mən dəfələrlə bildirmişdim ki, Azərbaycan vətəndaşları ildə ən azı bir dəfə tibbi müayinədən keçsinlər. Şadam ki, bu çağırışlar həyatda öz əksini tapır. Xüsusilə nəzərə alsaq ki, hər bir yerdə müayinədən keçmək üçün şərait var və 5 milyondan çox insanın bu imkanlardan istifadə etməsi bizim siyasətimizin qələbəsidir.

Ölkəmizdə bu sahədə aparılan işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. BMT-nin Minilliyin İnkişaf Məqsədləri Proqramı çərçivəsində, o cümlədən səhiyyə sahəsində aparılan işlər yüksək qiymətə layiqdir. Həmçinin Dünya Səhiyyə Təşkilatı bizim işimizi yüksək qiymətləndirir. Bir sözlə, bu sahədə aparılan islahatlar və dövlət tərəfindən qoyulan vəsait öz nəticəsini verir. Nəticə də ondan ibarətdir ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, gənc nəsil sağlam həyat tərzi sürsün, pis vərdişlərdən uzaq olsun. Sağlamlığı təmin və bərpa etmək üçün Azərbaycanda bütün şərait var. Bir daha demək istəyirəm ki, bu institutun yenidən fəaliyyətə başlaması bu sahədə atılan çox önəmli addımdır.

Mən sizi bu gözəl hadisə, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə uğurlar arzulayıram, sağ olun.

## Rəsmi xronika

Prezident İlham Əliyev Gülağa İslamovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Gülağa Bayram oğlu İslamov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

# Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusu əsaslı bərpa və yenidənqurmadan sonra açılıb

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*

**Dekabrın 18-də Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun əsaslı təmir və yenidənqurmadan sonra açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış oldular. Mədəniyyət naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verdi.**



Qeyd edildi ki, Azərbaycan Milli İncəsənət Muzeyi XIX əsrdə inşa edilən iki yanaşı tarixi binada yerləşir. 1891-1893-cü illərdə Bakının baş memarı Nikolay fon der Nonne tərəfindən inşa edilən binada ayrı-ayrı vaxtlarda müxtəlif idarə və təşkilatlar yerləşib. 1936-cı ildə əsası qoyulan İncəsənət Muzeyi 1951-ci ildən bu binada fəaliyyətini davam etdirib. Burada çox sayda qiymətli sənət əsərinin yerləşdirilməsi və ekspozisiyanın ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı daha da artırıb. Zaman keçdikcə təbii aşınmalar nadir sənət nümunələrinin toplandığı bu binanın təmiri zərurətini yaradıb. Əvvəllər burada belə genişmiqyaslı təmir işləri aparılmayıb. Prezident İlham Əliyevin Sərəncamı ilə muzeydə əsaslı təmir və yenidənqurma işləri görülüb. "Mariinski Qadın Gimnaziyası" adlanan birinci korpus 2009-cu ilin sentyabrında istifadəyə verilib.





2014-2018-ci illərdə isə muzeyin "De Burun malikanəsi" adlanan korpusunda İtaliya və Azərbaycan mütəxəssislərinin birgə səyləri ilə əsaslı təmir işləri həyata keçirilib. Bərpa-təmir işlərinə başlamazdan əvvəl muzey binasında xüsusi tədqiqat aparılıb. Binanın fiziki və texniki vəziyyəti öyrənilib. Ölkə əhəmiyyətli bu memarlıq abidəsinin tavan və divarlarında mövcud yapma rəsm bəzək və digər işlər ilkin vəziyyətə gətirilib. Memarlıq və bəzək elementləri təmizlənib, bərkitmə işləri yerinə yetirilib. Uzun illər ərzində cari təmir işləri aparmaqla tavan və divarlarda yeddi qat üst-üstə vurulan boya xüsusi texnologiya ilə təmizlənərək birinci rəng qatı müəyyən edilib. Əsas giriş qapıları və bir çox daxili qapılar təmizlənərək bərpa olunub. Milli İncəsənət Muzeyində yeni yaradılan şərait sərgi zallarında yerləşdirilən əsərlərin bütün təsiredici amillərdən - nəmişlik, temperatur, ultra şüalar və digər amillərdən qorunmasını və təhlükəsizliyini təmin edir, bununla bərabər, muzeyə gələn insanların rahatlığına, eyni zamanda, baxdıqları əsərlərdən zövq almalarına şərait yaradır.

Binanın memarlığı və qədimliyi saxlanılmaqla həm texniki, həm də texnoloji baxımdan lazım olan innovativ və yeni funksionallığı təmin edilib. Yenidənqurma və əsaslı təmir işləri ilə yanaşı, binada ekspozisiya zalları genişləndirilib, binanın seysmik davamlılığı artırılıb. On səkkiz mindən çox eksponatın saxlanıldığı Milli İncəsənət Muzeyində rəngkarlıq, qrafika, heykəltəraşlıq və tətbiqi sənət nümunələri nümayiş olunur. Üçüncü korpusda isə 2 mindən çox eksponat saxlanılır.

Bildirildi ki, Azərbaycan Milli İncəsənət Muzeyinin mövcud binaları arasında mərkəzləşdirilmiş giriş yaratmaq üçün 2013-cü ildə açılışı olan keçid korpusu da var. Bina memarlığın həm ampir, həm də barokko üslublarının istifadə edildiyi tarixi memarlıq abidəsidir. Xüsusi sifariş edilmiş güzgülər, çıraqlar və sobalar bu məkana gözəllik verir.



Muzeydə dünya incəsənəti nümunələri də nümayiş etdirilir. Ekspozisiya planına əsasən kolleksiyanı Qərbi Avropa, o cümlədən İtaliya, Hollandiya, Almaniya, Fransa, həmçinin Rusiya və Çin, Türkiyə, İran və Hindistan da daxil olmaqla Şərq incəsənəti təşkil edir. İlk dəfə olaraq yeni ekspozisiyada qədim dünya incəsənəti də təqdim olunur: buraya qədim Misir, qədim Yunanıstan, qədim Roma və qədim İran incəsənətləri daxildir. Bununla yanaşı, ilk dəfə olaraq Fransa zallarında fransız impressionistlərin əsərlərini görmək mümkündür. Bundan başqa, muzeyin ekspozisiyasında Rusiya avanqardı ilə yanaşı, avanqard çini məmulat və əsərləri də seyr etmək imkanı olacaq. Dünyanın istənilən muzeyi burada təqdim olunan əsərlərlə fəxr edə bilər.

Binada aparılan yenidənqurma və əsaslı təmir işləri, nümayiş etdirilən zəngin kolleksiya ilə yaxından tanış olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət ocağının fəaliyyətinə uğurlar arzuladılar.

# Polşanın "Ambasador" jurnalı: "Azərbaycan Avropaya doğru"

***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" sərlövhəli məqaləsi barədə Polşanın nüfuzlu "Ambasador" jurnalının 36-cı sayında polyak və ingilis dillərində "Azərbaycan Avropaya doğru" adlı material dərc edilib.***

AZƏRTAC-ın xüsusi müxbirinin təqdim etdiyi materialda deyilir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilib, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri (uzunluğu 1767 kilometr), 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (uzunluğu 980 kilometr) istifadəyə verilib. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulub. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihənin icrası sürətlə davam etdirilib, 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir.



1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılıb. Yeni şərtlərə görə, SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi nəzərdə tutulub. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə 3,6 milyard dollar bonus ödəniləcək. Müqavilənin müddətinin uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaradıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb. Təməli 2007-ci ildə qoyulmuş Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olub. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılıb. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilib".

# Moskvada VI Rusiya-Azərbaycan Gənclər Forumunun açılışı olub

***Dekabrın 18-də Moskvada, İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetində VI Rusiya-Azərbaycan Gənclər Forumunun açılışı olub. AZƏRTAC xəbər verir ki, Forumda Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiya Gənclərlə İş üzrə Federal Agentliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Dmitri İvanov, Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin üzvü Olqa Timofeyeva, İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetinin prorektorları Marina Filatova və Aleksandr Muradov, Azərbaycanın və Rusiyanın gənclər təşkilatlarının nümayəndələri, gənc sahibkarlar və başqaları iştirak ediblər.***





İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetinin prorektoru Aleksandr Muradov Forumu açaraq, ali təhsil ocağının tarixi, təhsil müəssisəsinin fəaliyyəti barədə məlumat verib.

Səfir Polad Bülbüloğlu çıxışında bildirib ki, bu ilin oktyabrında ölkəmizdə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Baş nazirinin müavini Olqa Qolodets ilə görüşündə iki ölkə gənclərinin sıx əməkdaşlığının təmin edilməsi məqsədilə silsilə forum və konfransların keçirilməsinin əhəmiyyəti vurğulanıb. Diplomat, həmçinin Azərbaycan ilə Rusiya arasında qədim tarixi köklərə əsaslanan dostluq münasibətlərindən söhbət açıb. Forumdan məqsədin iki ölkənin gəncləri arasında əlaqələrin möhkəmləndirilməsi olduğunu qeyd edən səfir deyib: "Bizim nəsil bir ölkədə yaşayıb, ümumi ideologiya əsasında tərbiyə alıb. İndi vəziyyət kökündən dəyişib. Hər bir respublika müstəqil dövlətdir. Biz çalışmalıyıq ki, gələcəyimiz olan gənclərimiz, eləcə də dövlət xadimləri və ziyalılar, yaradıcı şəxslər arasında əlaqələr itməsin". P.Bülbüloğlu ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb.

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov artıq ənənə halını alan Rusiya-Azərbaycan Gənclər forumlarının hər iki ölkənin gəncləri arasında sıx əlaqələrin qurulmasında, qarşılıqlı fikir, informasiya və təcrübə mübadiləsinin aparılmasında əvəzsiz rol oynadığını bildirib. A.Rəhimov Azərbaycan Prezidenti İlham Əliyevin "...biz bütün istiqamətlərdə çox səmərəli dinamika görürük və bütün bunlar bizim münasibətlərimizin ruhunu, xarakterini səciyyələndirir" fikrini toplantı iştirakçılarının diqqətinə çatdıraraq deyib: "İlk dəfə 2013-cü ildə Bakıda "Yeni nəsil: sərhədsiz məsuliyyət" mövzusunda keçirilən Forumda qəbul edilən qətnamə qarşılıqlı dialoqun və əməkdaşlığın möhkəm bünövrəsini qoyub, gələcək əməkdaşlığa təkan verib. 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan Rusiya Azərbaycanlı Gənclər Birliyi hər iki ölkə gənclərinin bir araya gələrək müxtəlif mövzularda dialoq qurması, fikir mübadiləsi aparmasında böyük rol oynayır".

Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlara üzv olduğunu diqqətə çatdıran nazir bildirib ki, ölkəmiz dövrün tələblərindən irəli gələrək müxtəlif dövlətlərlə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. Nazir A.Rəhimov Forum çərçivəsində aktual mövzular ətrafında aparılacaq müzakirələrdə gəncləri fəal olmağa və qarşılıqlı fikir mübadiləsi aparmağa çağırıb.

Rusiya Gənclərlə İş üzrə Federal Agentliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Dmitri İvanov bildirib ki, təmsil etdiyi qurum Rusiyada təhsil alan azərbaycanlı gənclərin adaptasiyası istiqamətində fəal iş aparır. Rusiya hökuməti bu ildən başlayaraq gənclərin təşəbbüslərini dəstəkləmək üçün qrantların ayrılmasını Gənclərlə İş üzrə Federal Agentliyə həvalə edib. Bu, müxtəlif sahələri, o cümlədən mədəniyyət, tarix, sahibkarlıq və digər istiqamətləri əhatə edən layihələr ola bilər. Qanunvericiliyə əsasən, əcnəbi vətəndaşlar qrant ala bilməzlər. Lakin Rusiyada qeyri-formal tələbə birlikləri kimi qarşılıqlı fəaliyyət forması var. Rusiya vətəndaşı bu qrantları alıb BMT-nin üzvü olan istənilən dövlətdə layihələrin həyata keçirilməsi üçün istifadə edə bilər.

Açılış çıxışlarından sonra Forum işini "Könüllülük", "Gənclər təşkilatları" və "Sahibkarlıq" mövzularında keçirilən panel iclasları ilə davam etdirib. Dekabrın 19-da Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyası Dağıstan Respublikasının paytaxtı Mahaçqalaya yola düşəcək. Səfər çərçivəsində müxtəlif tədbirlərin keçirilməsi, təcrübə mübadiləsinin aparılması nəzərdə tutulub.



# KİVDF-nin Müşahidə Şurasının növbəti iclası keçirilib

Dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Müşahidə Şurasının növbəti iclası keçirilib.

KİVDF-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açaraq gündəliyə Fondun 2019-cu ilin birinci rübü üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanının müzakirəsi və təsdiqinin və cari məsələlərin daxil olduğunu deyib.

Fondun icraçı direktoru Vüqar Səfərli yeni dövrün tələblərindən irəli gələrək müsabiqə qaydalarında müəyyən əlavə və dəyişikliklərin edilməsi zərurəti ilə əlaqədar KİV-lərə maliyyə yardımının 6 ay deyil, 3 ay müddətinə ayrılmasını təklif edib. O, həmçinin bildirib ki, yeni qaydalar hazır olana qədər qəzetlər müsabiqəyə sənədləri mövcud şərt və meyarlar əsasında təqdim edəcəklər.

İcraçı direktor 2019-cu ilin birinci rübü üzrə KİV-lərə maliyyə yardımı müsabiqəsinin dekabrın 19-dan 27-dək "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası" əsasında 19 istiqamət üzrə keçiriləcəyini bildirib.

Müşahidə Şurasının üzvləri müzakirə olunan məsələ ilə bağlı rəy və təkliflərini bildiriblər. Şuranın sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən Cəmaləddin Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov, Rasim Həsənov və Ayaz Mirzəyev çıxış edərək Fondun maliyyə yardımı müsabiqələrinin çap mediasının maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd ediblər. Daha sonra müsabiqə elanı səsə qoyularaq təsdiq edilib. Cari məsələlərin müzakirəsi zamanı Vüqar Səfərli Fondun perspektiv fəaliyyət istiqamətləri barədə məlumat verib

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Pekində Azərbaycan-Çin dostluq konserti keçirilib

***Heydər Əliyev Fondunun və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının təşkilatçılığı, Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Pekində Azərbaycan-Çin dostluq konserti keçirilib.***

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin xaricdə tanıdılması və təbliği istiqamətində həyata keçirdiyi tədbirlərdən olan konsertin tamaşaçıları arasında Çin Xalq Respublikasının (ÇXR) rəsmiləri, o cümlədən Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin, Kommunist Partiyasının, Xarici İşlər Nazirliyinin, Pekin xalq hökumətinin, digər dövlət qurumlarının məsul işçiləri olublar.



Konsertdən əvvəl çıxış edən Baş nazirin müavini Əli Əhmədov Azərbaycan ilə Çinin dost və tərəfdaş ölkələr olduğunu qeyd edərək, xalqlarımız arasında əlaqələrin tarixi İpək Yolu dövründən başladığını deyib. Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvi hələ XII əsrdə Azərbaycan-Çin dostluğunu "Yeddi gözəl" poemasında vəsf etdiyi Çin gözəli obrazı ilə təsvir edib. Belə bir möhkəm özül üzərində qurulmuş Azərbaycan-Çin dostluğunun və əməkdaşlığının indiki mənzərəsi daha zəngin və rəngarəngdir.





Baş nazirin müavini Azərbaycanın sürətlə inkişaf edən və dünyada özünəməxsus yeri ilə seçilən Çinlə əlaqələrə xüsusi önəm verdiyini, əməkdaşlığın bütün istiqamətlər üzrə genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyev və ÇXR Sədri Si Cinpin arasındakı qarşılıqlı hörmət və etimada əsaslanan siyasi dialoq ikitərəfli əlaqələrimizi inkişaf etdirmək üçün geniş imkanlar yaradır.

Si Cinpinin "Bir kəmər, bir yol" təşəbbüsünü xüsusi vurğulayan Ə.Əhmədov deyib ki, ölkəmizin ilk gündən dəstəklədiyi, dövlətlər və xalqlar arasında iqtisadi, humanitar və mədəni əlaqələrin dərinləşməsini özündə ehtiva edən bu vacib təşəbbüs Azərbaycanı və Çini daha da yaxınlaşdırıb. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəsi ilə "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşmasına öz töhfəsini verən Azərbaycan iqtisadi iş birliyi ilə yanaşı, Çinlə humanitar sahədə də müxtəlif layihələr həyata keçirməkdə maraqlıdır.

Baş nazirin müavini Azərbaycan-Çin humanitar əlaqələrinin genişləndirilməsində və müxtəlif mədəni layihələrin reallaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəal rolundan söz açıb. Azərbaycanın qədim tarixini və zəngin mədəniyyətini dünyada layiqincə təbliğ edən Heydər Əliyev Fondunun Çində reallaşdırdığı tədbirlər xalqlarımızın bir-birinin mədəni sərvətləri ilə daha yaxından tanış olmalarına imkan yaradacaq.

**Ardı Səh. 6**





# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Pekində Azərbaycan-Çin dostluq konserti keçirilib

Əvvəli Səh. 5

Qədim İpək Yolunun ölkələrimiz arasında dostluq əlaqələrinin təməlini qoyduğunu qeyd edən Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Şao Xon zəngin mədəniyyətə malik xalqlarımızın uzaq məsafədə yaşamasına baxmayaraq, bu yol vasitəsilə bir-birini tanımağa başladığını söyləyib. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 26 il ərzində qarşılıqlı anlaşma və etimad durmadan dərinləşib, müxtəlif sahələrdə dostluğa əsaslanan əməkdaşlıq inkişaf edib.

Azərbaycanın “Bir kəmər, bir yol” strategiyası üzərində yerləşən vacib bir ölkə olduğunu diqqətə çatdıran Şao Xon ötən müddətdə Azərbaycanın bu təşəbbüsün həyata keçməsində fəal iştirak etdiyini deyib.

“İnsanlar arasındakı dostluq ölkələr arasındakı dostluğun əsasını təşkil edir” fikrini vurğulayan Çin rəsmisi “Bir kəmər, bir yol” təşəbbüsünün inkişafı ilə birgə xalqlarımız arasındakı təmasların da gündən-günə çoxaldığını, hər iki tərəfdən müxtəlif sahələrdə əməkdaşlığın daha fəallaşdığını bildirib.








Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Azərbaycan musiqilərinin dünyada çox məşhur olduğunu diqqətə çatdırıb. O, dostluq konsertinin Çin xalqının Azərbaycanın milli mədəniyyətini daha yaxından tanıması üçün gözəl bir imkan olduğunu deyib. “Musiqi bəşəriyyətin ümumi dilidir. Ümid edirəm ki, bu konsert Azərbaycanın qədim mədəniyyətinin sədasını bizə çatdıracaq, iki xalq arasındakı dostluq və sevgi körpüsünü daha da möhkəm edəcək”, - deyə o əlavə edib.

Sonra səhnə Azərbaycan incəsənət ustalarının ixtiyarına verilib. Pekinin ən böyük konsert sarayı olan İfaçılıq Sənəti Milli Mərkəzində təşkil olunan konsertdə Fuad İbrahimovun dirijorluğu ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və Xalq artistləri Murad Hüseynov, Samir Cəfərov, Ənvər Sadıqov, Əməkdar artist Sahib Paşazadə, digər tanınmış incəsənət ustalarının ifasında Üzeyir Hacıbəylinin (“Arazbarı”, “Sevgili canan”), Fikrət Əmirovun (“Sevil” operasından Balaşın ariyası, “Azərbaycan elləri”, “Məhəbbət rəqsi”), Qara Qarayevin (“İldırımlı yollarla” baletindən parça), Niyazinin (“Arzu”), Cahangir Cahangirovun (“Qarabağ”, “Ay qız”), Aqşin Əlizadənin (“Cəngi”), Tofiq Quliyevin (“Bakı haqqında mahnı”, “Qaytağı”, film musiqilərindən poppuri), Həsən Rzayevin (“Çahargah” rapsodiyası), Faiq Sücəddinovun (“Qaytağı”), Müslüm Maqomayevin (“Azərbaycan”) əsərləri, xalq mahnıları, habelə Avropa bəstəkarlarının əsərləri ifa olunub. Tamaşaçılar Azərbaycan incəsənət ustalarının ifasını sürəkli alqışlarla qarşılayıblar. Çin ənənəvi musiqi parçalarının tarda, habelə aşıq ifasında təqdimatı isə salona toplaşanlar üçün əsl sürpriz olub.




Qeyd edək ki, konsert Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində baş tutub. Ötən ilin noyabrında Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında dostluq və əməkdaşlıq haqqında Memorandum imzalanıb. Bu ilin avqustunda isə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşüb.

Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Pekinə səfəri çərçivəsində Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Şao Xon və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin ilə görüşərək iki ölkə arasında əməkdaşlıq məsələlərini müzakirə edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun daxil olduğu nümayəndə heyəti Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının muzeyi ilə də tanış olub.

***Şahin Cəfərov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Pekin***

# Milli Məclisin növbəti plenar iclası keçirilib




**_Dekabrın 18-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin sədri Oqtay Əsədov gündəliyi təqdim edib. Əvvəlcə cari məsələlər müzakirə olunub. Sonra gündəlikdəki sənədlərə baxılıb._**

Əvvəlcə iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanatının təsdiq edilməsi barədə" qanun layihəsini təqdim edib. O deyib ki, Birgə Bəyanatda hər iki dövlət başçısı Azərbaycan və Rusiya arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsində iqtisadi əlaqələrin rolunu və əhəmiyyətini qeyd edərək, ticari-iqtisadi əlaqələrin müasir inkişaf tələblərinə cavab verən keyfiyyətcə yeni səviyyəyə çıxarılması niyyətlərini bildirirlər. Prezidentlər ticari-iqtisadi və investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün ticarətdə daha əlverişli şəraitin yaradılması, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Rusiya hissələrində tranzit-nəqliyyat potensialının artırılması, milli iqtisadiyyatın və ixracın perspektiv sahələrində şaxələndirilməsi və innovativ inkişaf sahəsindəki məsələlərin həlli üçün birgə istehsalın yaradılması, dövlət idarəçiliyi sahəsində innovativ yanaşmaların, o cümlədən büdcə-vergi sahəsində müasir rəqəmsal texnologiyaların tətbiqi üzrə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsi, dövlət sektorunda istifadə üçün qabaqcıl proqram təminatının tətbiqi üzrə təcrübə mübadiləsi və əməkdaşlıq, gənclər siyasəti, təhsil, idman və turizm daxil olmaqla humanitar sahədə əməkdaşlığın genişləndirilməsi kimi istiqamətlərə əsaslı diqqət yetirmək zərurətindən çıxış edirlər. Sənəd səsə qoyularaq qəbul edilib.

Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Saziş haqqında məlumat verilib və sənəd səsə qoyularaq təsdiqlənib.

İclasda "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənəd üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi üçüncü oxunuşda təqdim edərkən bildirib ki, təklif edilən dəyişikliyin məqsədi məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyin elektron qaydada qeydiyyata alınmasının hüquqi mexanizminin müəyyən edilməsindən ibarətdir. Sənəd səsə qoyularaq təsdiq olunub.

Sonra Əli Hüseynli Mənzil və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında sənədləri üçüncü oxunuşda şərh edib. Daha sonra komitə sədri "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Deputatlar qanunvericiliyin uyğunlaşdırılması məqsədilə sənədin 12-ci və 14-cü maddəsinə təklif olunan dəyişikliyə də razılıq veriblər. Sənəd üçüncü oxunuşda qəbul edilib.

Əli Hüseynli Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında sənədlə bağlı deyib ki, 2016-cı ilin sentyabrında ölkəmizdə keçirilmiş referendum əsasən Konstitusiyada bir sıra dəyişikliklər edilməsi nəticəsində Seçki Məcəlləsində mövcud olan 178.1-ci maddə ilə ziddiyyət meydana gəlib. Belə ki, növbədənkənar prezident seçkilərində seçilmiş prezidentin səlahiyyət müddəti oktyabr ayında yox, 7 il əvvəl prezident seçildiyi tarixdə bitir. Həmin ziddiyyətin aradan qaldırılması üçün məcəllədə dəyişiklik edilməsi zərurəti yaranıb. Milli Məclisin deputatları Seçki Məcəlləsində dəyişikliyə dair qanun layihəsini üçüncü oxunuşda məqbul sayıblar.

İclasda İnzibati Xətalar Məcəlləsində və "Avtomobil nəqliyyatı haqqında" Qanuna dəyişiklik edilməsi haqqında qanun layihələri də üçüncü oxunuşda müzakirə edilib. Milli Məclisin deputatları həmin dəyişiklikləri razılıqla qarşılayıblar. Sonra komitə sədri Ziyad Səmədzadə "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi üçüncü oxunuşda təqdim edib. Bu sənəd də səsə qoyularaq qəbul edilib.

İclasda, həmçinin Əli Hüseynli "Azərbaycan Respublikasının dövlət gerbi haqqında və "Azərbaycan Respublikasının dövlət himni haqqında" qanun layihələri barədə məlumat verib. Qeyd edib ki, hər iki sənəd "Azərbaycan Respublikası dövlət gerbinin təsvirinin təsdiq edilməsi haqqında" və "Azərbaycan Respublikası dövlət himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Konstitusiya qanunlarının tətbiqi məqsədilə hazırlanıb.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda təsdiq edilib. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edən Əli Hüseynli deyib ki, sənəd Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nə uyğunlaşdırma və Milli Məclis haqqında qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

İclasın sonunda elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli "Ümumi təhsil haqqında" qanun layihəsini birinci oxunuşda şərh edib. Bildirib ki, sənəd 5 fəsil, 33 maddədən ibarətdir. Bu sənəd Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq ölkəmizdə ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda təsdiqlənib. Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

***Rəfiqə Kamalqızı***

## Siyavuş Novruzov: "Biz niyə susmalıyıq?"



"Azərbaycanın uğurları artdıqca, ölkəmizi sevməyən qüvvələr, erməni lobbisi ilə maliyyələşənlər Azərbaycan haqqında mənfi fikirlər formalaşdırmağa başlayırlar. Biz addımımızı geri qoyduqca, onlar bir az da məsələnin üzərinə gəlirlər. İnternet üzərindən yayımlanan televiziya kanallarını, saytları açdıqda dövlət quruculuğunda, inkişafında, ölkənin təhlükəsizliyinin, ictimai-siyasi sabitliyinin qorunmasında, dövlətimizin qurucusu Ümummilli Lider haqqında olmazın təhqiramiz fikirlərini söyləyirlər. Biz niyə susmalıyıq?". SİA-nın xəbərinə görə, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Parlamentin dünən keçirilən plenar iclasında çıxış edərkən deyib.

Komitə sədri bildirib ki, bir qrup deputat onlara cavab verməklə onların səviyyəsinə düşəcəyimizi deyir: "Bu mahnını 20 ildir ki, parlamentdə eşidirəm. Kim söz demək istəmir, bir bəhanı ilə sözün altından çıxmağa çalışır. Burada oturan deputatların hər biri təhqir olunur. Onlara cavab vermək 3-5 adamın adına yazılmayıb. Ziyalı, alim, akademik, sıravi deputatların hər biri onlara cavab verməli, dövlət başçısını, Ümummilli Lideri qorumalıdır. Biz onları başlı-başına buraxmışıq. Onlar nə milli azadlıq hərəkatında olub, nə döyüşlərdə iştirak edib, nə xalqın taleyüklü məsələlərində fəaliyyət göstəriblər. Müxətlif bəhanələrlə aradan çıxıb, gedib xaricdə, orda-burda oturub Azərbaycan haqqında təxribat aparırlar".

Üzünü hüquq-mühafizə orqanlarına tutan S.Novruzov söyləyib ki, bir aylıq monitorinq aparıb aidiyyatı strukturların qarşısına qoyun: "Sual verin ki, sizin ölkəmizdə dövlət çevrilişinə çağırış, silahlanılmaqla bağlı fikir söylənilsə, dövlət başçıları təhqir edilsə, nə edərdiniz? Almaniyada, Fransada dövlətə qarşı məqalə və yazı yazan biri gecə ilə həbs edilir. Amma Azərbaycan əleyhinə bu qədər çağırış edilir. O zaman niyə onları bəsləyirsiniz? Hüquq mühafizə orqanları İnterpola konkret sənədlər təqdim etməlidir".

Deputat qeyd edib ki, hüquqi demokratik mübarizədən söhbət gedirsə, gəl mübarizəni apar: "Bu gün Azərbaycan kifayət qədər siyasi partiyalar var ki, onlar qanun çərçivəsində mitinq keçirir, etirazını edir. Demokratik mübarizənin yolu budur. Antidemokratik mübarizənin yolu isə hüquq mühafizə orqanlarından keçir. Bu məsələ ciddi şəkildə həll olunmalıdır ki, başqaları onlara qoşulmasın. Deputatlar da bu məsələlərə mövqeyini bildirməlidir. Əgər onlar dövləti təhqir edirsə, bu, bütün millət vəkillərinə də aid edilir".

***Nailə Məhərrəmova***

## "Biz böyük dəyərlərə malik bir xalqıq"



"Azərbaycan müstəqil olduqdan sonra bizim mənəvi dəyərlərimizə qayıdış başlamışdır. Hələ Ümummilli Lider Heydər Əliyev tərəfindən bu məsələyə xüsusi diqqət yetirilirdi. Ulu Öndərin zamanında bu sahədə çox böyük işlər görüldü". Bunu SİA-ya açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov deyib.

Fond rəsmisinin sözlərinə görə, bu gün Prezident İlham Əliyev Ümummilli Liderin siyasətinin fəal və uğurlu davamçısı kimi bu sahədə yenə də böyük işlər görür: "Bildiyiniz kimi Mənəvi Dəyərlərin Təbliği Fondu də məhz cənab Prezidentin yaratdığı bir Fonddur. Həmin Fondun yaradılmasında əsas məqsəd isə mənəvi dəyərlərin qorunması, inkişafıdır. Tarixən Azərbaycan bir çox dinlərin, mədəniyyətlərin qovşağında yerləşib və bizdə tarixən çox böyük ənənə formalaşıb. Biz böyük dəyərlərə malik bir xalqıq. Fondumuz dövlətin, cənab Prezidentin bu siyasətinə dəstək verir. Biz çalışırıq ki, yerlərdə dövlətimizin təməl dayaqlarından olan mənəvi dəyərləri təbliğ edək. Xüsusilə də gənclər arasında Azərbaycan dəyərlərini təbliğ etməyə çalışırıq. Bildiyiniz kimi dünyada gedən proseslər bəzən insanların öz milli kimliyindən, öz dəyərlərindən yadlaşmasına gətirib çıxarır. Ona görə də biz çalışırıq ki, bu sahədə maarifləndirmə işləri aparılmaqla dövlətin mənəvi dəyərlər siyasətinə yaxından dəstək verək".

# Ömrünü elmə həsr edən böyük alim

## AMEA-da akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən beynəlxalq konfrans keçirilib

***Dekabrın 17-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) görkəmli alim və ictimai-siyasi xadim, Əməkdar elm xadimi, biologiya elmləri doktoru, akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən "Davamlı inkişaf naminə fotosintez və hidrogen enerjisi tədqiqatları" mövzusunda IX beynəlxalq konfrans keçirilib. Konfransda Azərbaycan alimləri ilə yanaşı, Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan, Türkiyə, İran və digər ölkələrdən də alimlər iştirak ediblər.***



Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gələrək görkəmli alimin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Konfransı açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə görkəmli alimin zəngin elmi fəaliyyətindən, keçdiyi ömür yolundan söz açıb. Qeyd edib ki, Cəlal Əliyev ölkəmizdə bioloji müxtəlifliyin mühafizəsi və istifadəsi strategiyasının hazırlanmasında, xüsusilə



Azərbaycanın elm tarixində ilk dəfə fotosintez prosesini əsaslı şəkildə öyrənib, bu sahədə uğurlu tədqiqatların aparılmasında böyük xidmətlər göstərib. Akademik Cəlal Əliyev Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin yaradıcısı, bu sahənin inkişafında mühüm xidmətləri olan alimlərdəndir. Onun rəhbərliyi ilə yeni fundamental elmi-tədqiqat işləri təşkil edilib. Görkəmli akademikin elmi yaradıcılığının əhəmiyyətli hissəsi taxılçılığın inkişafına yönəlib.

AMEA-nın prezidenti bildirib ki, ölkəmizdə elmi-praktiki əsaslar üzərində qurulan bitki seleksiyası sahəsində qabaqcıl mövqeyi ilə seçilən Cəlal Əliyev məktəbi formalaşıb. Alimin fotosintez tədqiqi sahəsində yaratdığı məktəbin əldə etdiyi misilsiz nailiyyətlər, qazanılan uğurlar dünya elmi ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilib. O, ilkin seleksiya nailiyyətlərinin təsərrüfatlara sürətlə tətbiqini təşkil etmək üçün elmlə istehsalatın sıx əlaqəsini yaratmağa nail olub.

Akademik Cəlal Əliyevin öz fundamental tədqiqatları ilə AMEA və Kənd Təsərrüfatı Nazirliyi arasında işgüzar münasibətlərin formalaşmasına böyük töhfələr verdiyini qeyd edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, bu əlaqələr artıq ciddi əməkdaşlıq müstəvisinə keçib. Görkəmli alim Azərbaycanda aqrar elmin yeni istiqamətlərini müəyyənləşdirib, onun əldə etdiyi nəticələrin tətbiqi bu sahədə dayanıqlı inkişafa yol açıb. Bu tədqiqatlar məhsuldarlığın yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Cəlal Əliyevin bioloji müxtəlifliyin mühafizəsi strategiyasının hazırlanmasında da böyük xidmətləri olub.

Nazir diqqətə çatdırıb ki, Azərbaycanda fotosintezin ilkin proseslərinin məhsuldarlıqla əlaqəsinə dair ilk tədqiqatlar akademik Cəlal Əliyevin adı ilə bağlıdır. O, biologiyanın yeni istiqamətlərinin müəyyənləşməsində, xüsusilə fotosintez sahəsində öz layiqli məktəbini yaradıb. Akademikin tədqiqatları əsasında məhsuldar, yüksək keyfiyyətli buğda sortları yetişdirilib, onların fizioloji və biokimyəvi əsasları işlənib. Respublikamızda geniş ərazilərdə becərilən bu bərk və yumşaq buğda sortları Cəlal Əliyev sortları kimi tanınır. Fermerlər "Bərəkətli 95", "Qarabağ", "Əzəmətli 95", "Qobustan", "Qırmızı gül 1", "Tale 38", "Ləyaqətli 80" sortlarını həvəslə becərirlər.

Qeyd olunub ki, akademik Cəlal Əliyevin 90 illik yubileyi ilə bağlı Kənd Təsərrüfatı Nazirliyində də xüsusi tədbirlər planı hazırlanıb. Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU), Əkinçilik Elmi-Tədqiqat İnstitutunda silsilə tədbirlər keçirilib. ADAU-da görkəmli akademikin adını daşıyan bitki fiziologiyası laboratoriyası yaradılıb. Görkəmli alimin 90 illik yubileyinə həsr edilmiş elmi əsərlər məcmuəsi nəşr olunub. Nazirliyin "Aqrar elm" jurnalının və "Kənd həyatı" qəzetinin bir buraxılışı akademik Cəlal Əliyevin elmi və ictimai-siyasi fəaliyyətinə həsr edilib.



AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov alimin keçdiyi həyat yolundan, elmi təşkilatçı kimi fəaliyyətindən danışıb. Bildirib ki, onun elmi fəaliyyəti əsasən ölkəmizin ərzaq təhlükəsizliyi üçün vacib olan sahələrin tədqiqinə yönəlib, alimin dərin nəzəri bilikləri və ideyaları nəticəsində yeni buğda sortlarının yaradılmasına nail olunub. Ömrünün altmış ildən çoxunu Azərbaycan elminin inkişafına həsr edən, yüzə yaxın elmi kadrlar hazırlamış görkəmli alim Cəlal Əliyev 600-dən çox elmi əsərin müəllifidir. Hələ ötən əsrin 70-ci illərində akademik Cəlal Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə bioinformatika məktəbinin əsası qoyulub. Hazırda alimin fotosintezlə bağlı əldə etdiyi elmi nəticələr dünyanın bir çox ölkələrində uğurla tətbiq olunur.

AMEA-nın vitse-prezidenti, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova akademik Cəlal Əliyevin həyatı və elmi fəaliyyəti haqqında danışıb. Diqqətə çatdırıb ki, Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin, o cümlədən molekul-

# Ömrünü elmə həsr edən böyük alim

## AMEA-da akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən beynəlxalq konfrans keçirilib



Görkəmli ictimai-siyasi xadim, akademik Cəlal Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən "Davamlı inkişaf naminə fotosintez və hidrogen enerjisi tədqiqatları" mövzusunda IX beynəlxalq konfrans işini dekabrın 18-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda davam etdirib. Tədbirdə çıxış edən institutun direktoru, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova Cəlal Əliyevin xatirəsinə həsr olunan beynəlxalq konfransın məhz alim tərəfindən əsası qoyulan elmi müəssisədə yekunlaşdığını söyləyib. İ.Hüseynova qeyd edib ki, Beynəlxalq Fotosintez Cəmiyyətinin "Akademik Cəlal Əliyev adına mükafat"ı təsis etməsi onun dünya səviyyəli alim kimi tanındığının sübutudur və bu, Azərbaycan elmi üçün əlamətdar hadisədir.

Tədbirdə AMEA-nın müxbir üzvü İbrahim Əzizov, biologiya elmləri doktorları Şahniyar Bayramov, Səftər Süleymanov, Tofiq Allahverdiyev, gənc alim Səmra Mirzəyeva, Fransa Milli Kənd Təsərrüfatı Elmi Tədqiqatlar İnstitutundan doktor Ahmad Kheyr-Pour məruzələrlə çıxış ediblər. Sonda akademik Cəlal Əliyevin tələbəsi, Pusan Dövlət Universitetinin tədqiqatçı professoru İsmayıl Zülfüqarov müəllimi ilə bağlı xatirələrini bölüşüb, gənclərə dünya şöhrətli alimin yaratdığı məktəbin layiqli davamçısı olmağı arzulayıb.





yar biologiyanın, molekulyar genetikanın, gen və hüceyrə biotexnologiyasının əsası keçən əsrin 70-ci illərində akademik Cəlal Əliyev tərəfindən qoyulub və əsaslı şəkildə inkişaf etdirilib. Bütün tədqiqatlarını multidissiplinar istiqamətlərdə aparan alim biologiya elmində riyaziyyatın tətbiqinə böyük diqqət yetirib. Bu gün də həmin işlərin nəticələri öz bəhrəsini verir. Həyatını fotosintez prosesinin sirlərinin öyrənilməsinə həsr edən alim bu mürəkkəb və unikal prosesi öyrənməklə dünya elminə mühüm yeniliklər gətirib.

Cəlal Əliyev öz elmi fəaliyyətini kənd təsərrüfatı bitkilərinin, əsas ərzaq bitkisi kimi buğdanın fotosintetik məhsuldarlığının nəzəri əsaslarının öyrənilməsinə həsr edib. Azərbaycan elmi tarixində ilk dəfə yer üzərində həyatın əsasını təşkil edən fotosintez prosesinin əsaslı şəkildə öyrənilməsinə ciddi maraq göstərib və bu sahə onun elmi yaradıcılığının fundamental tədqiqat obyektinə çevrilib. Fotosintez prosesinin müxtəlif tədqiqat istiqamətlərinin inteqrasiyası hesabına "yaxşı" fotosintez haqqında təsəvvür yaradıb, kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə edilməsi üçün prosesin optimallaşdırılması məsələlərini araşdırıb. O, tarla şəraitində yetişdirilən kontrast buğda və soya genotipləri ilə aparılan 40 illik təcrübələrlə sübut edib ki, fototənəffüs təkamülün gedişində formalaşmış həyati əhəmiyyətli metabolik proseslərdən biridir və bitkilərin məhsuldarlığını artırmaq məqsədilə müxtəlif yollarla fototənəffüsü azaltmaq cəhdləri əsassızdır. Cəlal Əliyevin fototənəffüs prosesi ilə bağlı əldə etdiyi bu qlobal nəticə dünya elminin tarixinə qızıl hərflərlə yazılacaq.

Konfransda Beynəlxalq Fotosintez Cəmiyyətinin katibi, professor Julian Eaton-Rye "Akademik Cəlal Əliyevin dünya fotosintez elminə verdiyi töhfələr" mövzusunda məruzə ilə çıxış edib. Professor məruzəsində görkəmli alim Cəlal Əliyevin Azərbaycanda biologiya elminin bir sıra yeni istiqamətlərinin müəyyənləşdirilməsində və onun aktual problemlərinin həllində, bütövlükdə aqrar elmin inkişafında, buğdanın məhsuldarlığının əsası kimi fotosintez prosesinin kompleks tədqiqində rolundan bəhs edib.

Sonra Beynəlxalq Fotosintez Cəmiyyətinin təsis etdiyi akademik Cəlal Əliyev adına mükafatın təqdimatı olub.

Konfransda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, akademiklər Teymur Bünyadov, Yaqub Mahmudov, Asəf Hacıyev, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, ekologiya və təbii sərvətlər nazirinin müavini, AMEA-nın müxbir üzvü Novruz Quliyev, Milli Məclisin komitə sədri Eldar İbrahimov və digər çıxış edənlər Cəlal Əliyevin yüksək mənəvi keyfiyyətlərindən, ictimai-siyasi fəaliyyətindən, alimin biologiya elminin inkişafına verdiyi töhfələrdən, kənd təsərrüfatı bitkilərinin, əsasən buğdanın fotosintetik məhsuldarlığının nəzəri əsaslarının öyrənilməsində, fotosintez və fototənəffüs proseslərinin kompleks tədqiqində göstərdiyi xidmətlərindən danışıb, onunla bağlı xatirələrini bölüşüblər. Vurğulanıb ki, akademik Cəlal Əliyev ciddi və tələbkar müəllim olmaqla yanaşı, hər zaman yetirmələrinə qayğı ilə yanaşıb, səmimi tələbə-müəllim münasibəti yaradıb. Ömrünü elmə, təhsilə həsr edən Cəlal Əliyev unikal şəxsiyyət olaraq şərəfli, vicdanlı, məsuliyyətli müəllim adını daim uca tutub. Onun məktəbinin davamçıları hazırda Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Ukrayna, Koreya və digər ölkələrin nüfuzlu universitetlərində uğurla fəaliyyət göstərirlər. Alimin zəngin elmi fəaliyyəti hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycan Respublikası Prezidentinin "Fəxri diplomu"na layiq görülüb, "İstiqlal" və "Şərəf" ordenləri ilə təltif edilib.

Əməkdar memar Rasim Əliyev ailə üzvləri adından çıxış edərək konfransın təşkilinə görə AMEA rəhbərliyinə, həmçinin tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Sonda akademik Cəlal Əliyevə həsr olunmuş sənədli film nümayiş etdirilib.

# "Mənəvi dəyərlərə dövlət qayğısı İlham Əliyev siyasətinin tərkib hissəsi kimi"

Dünən "Mənəvi dəyərlərə dövlət qayğısı İlham Əliyev siyasətinin tərkib hissəsi kimi" mövzusunda konfrans və kitab təqdimatı keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə ziyalılar, ictimaiyyət nümayəndələri, media nümayəndələri və gənclər iştirak edib.




Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov açaraq Fondun gördüyü işlər və mənəvi dəyərlərlə bağlı gənclərin üzərinə düşən vəzifələrdən danışıb. Qurum rəsmisi ölkəmizdə gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyini bildirib. İcraçı direktor qeyd edib ki, gənclər tarixi ənənələrə sadiq qalaraq müasir düşüncəni də mənimsəməyi bacarmalıdır. Hər bir gəncin milli-mənəvi dəyərlərimizə uyğun şəkildə formalaşmasının vacibliyini qeyd edən M.İsmayılov Fondun bu sahədə aidiyyəti qurumlarla genişmiqyaslı və çoxşaxəli fəaliyyət həyata keçirməyi planlaşdırdığını vurğulayıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, "SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev çıxış edərək konfransın əhəmiyyətindən və kitabın önəmindən danışıb. Qurum rəhbəri deyib ki, mənəvi dəyərlərimiz bizim sərvətimizdir: "Adət-ənənələrimiz bizim mənəvi dəyərlərimizin simvoludur. Biz deqradasiyalara yol verməməliyik, əksinə dünyanın çağırışlarına cavab verərək, dünyaya inteqrasiya etməliyik. Bu bizim dünyanın müxtəlif guşələrində yaşayan insanlarımız, gəncliyimiz üçün çox vacibdir. KİV-lərin, QHT-lərin və sairənin özü də bir institut kimi cəmiyyətin formalaşmasına öz töhfəsini verir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən cənab Prezident İlham Əliyev mənəvi dəyərlərə hər zaman böyük önəm verib".

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu öz fikirlərini mənəvi dəyərlərin bizim milli kimliyimizi ehtiva etməsi ilə əsaslandırıb: "Bu dəyərlərin hamısı bizim milli kimliyimizi təşkil edən əsaslardır. Bilirsiniz ki, müasir dünyada qlobal proseslər baş verir. Milli dövlətlər heç vaxt bu qədər müdafiəsiz durumda olmayıb. Qlobal imperializmin 3 hədəfi var. Bunlardan birincisi dəyərsizləşdirmə, ikincisi lidersizləşdirmə və üçüncüsü dövlətsizləşdirmədir. Görürsünüzmü, imperializm bu ardıcıllığı necə düzgün müəyyənləşdirib. Bu siyasət bir çox ölkələrdə effekt verib. Azərbaycan hazırda buna qarşı mübarizə aparır. Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması da bunun bir göstəricisidir".

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib ki, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır: "İnsanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli mənəvi dəyərlərin yaradıcısı xalqdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır".

Daha sonra Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü İradə Hüseynova, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli və digərləri çıxış edərək mövzu ətrafında fikirlərini bölüşüblər.

# "Prezidentimiz üçün əsas məsələ insanların sağlamlığının qorunmasıdır"



"Bakıda Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əsaslı yenidənqurmadan sonra açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev düzgün olaraq bildirdi ki, bu gün səhiyyə sahəsində yürüdülən siyasətin məqsədi Azərbaycan vətəndaşlarının sağlamlığını və yüksək səviyyəli tibbi xidmət almaq imkanını təmin etməkdir. Həqiqətən də cənab Prezidentimiz üçün əsas məsələ insanların sağlamlığının qorunmasıdır. Təbii ki, bu, prioritet məsələlərdən birincisidir". Bunu SİA-ya açıqlamasında millət vəkili Kamilə Əliyeva deyib.

Deputatın sözlərinə görə, ölkə başçısı hər zaman çıxışlarında bu devizi əsas tuturdu - "Neft kapitalını insan kapitalına çevirmək": "Yəni insan amili cənab Prezident üçün ən ümdə məsələlərdən biridir. Biz hər dəfə istər paytaxt Bakıda, istərsə də bölgələrimizdə səhiyyə ocaqlarının, diaqnostika mərkəzlərinin açılması, xəstəxanaların yenilənməsi, müasir təchizatlarla təmin olunması, karların hazırlanması istiqamətində ölkə başçısının gördüyü işlər göz önündədir. Bu gün Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əsaslı yenidənqurmadan sonra açılışı da o məqsədləri güdür ki, bütün səhiyyə ocaqları yenilənsin və müasir tələblərə cavab versin. Təbii ki, bu da insanlarımızın sağlamlığı üçündür. Həmin açılışla bunun bir daha təsdiqini görmüş olduq".

# Pakistan Dövlət Televiziyasının jurnalisti "İki sahil" qəzetinin redaksiyasında



Pakistan Dövlət Televiziyasının jurnalisti, siyasi analitik, ədəbiyyat üzrə fəlsəfə doktoru, professor Əfşan Məlik "İki sahil" qəzetinin qonağı olub. SİA-nın verdiyi məlumata görə, qonağı salamlayan "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycanda mətbuatın inkişafı və "İki sahil" qəzetinin fəaliyyəti barədə məlumat verib. Ölkəmizdə KİV-in inkişafına qayğının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu diqqətə çatdıran Vüqar Rəhimzadə əlavə edib ki, Azərbaycanda söz və mətbuat azadlığı ən yüksək səviyyədə təmin edilib.

Vüqar Rəhimzadə, həmçinin bildirib ki, Pakistan-Azərbaycan əlaqələri bu gün sürətlə inkişaf edir. Pakistan Dövlət Televiziyasının jurnalisti Əfşan Məlik xoş və səmimi münasibətə görə "İki sahil" qəzetinin rəhbərliyinə öz minnətdarlığını bildirib.

Ölkələrimizin bir-birinə ayrılmaz tellərlə bağlı olduğunu deyən qonaq bildirib ki, bu gün Pakistanın hər bir vətəndaşı Azərbaycanı qardaş ölkə kimi tanıyır və qəbul edir. Ə.Məlik, həmçinin ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji və s. sahələrdə sürətlə inkişafının hər iki dövlət üçün önəmindən danışıb. Bildirib ki, Pakistan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycanı haqlı tərəf kimi görür və ölkəmizin ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən birinin məhz Pakistan olduğunu diqqətə çatdıran Ə.Məlik qeyd edib ki, Azərbaycan hər zama Pakistana qardaş, doğma ölkədir.

Qonaq Azərbaycanda mətbuatın inkişafı məsələlərinə də toxunub və bu prosesin sürətlə getdiyini bildirib. Həmçinin "İki sahil" qəzetinin fəaliyyətini yüksək qiymətləndirib və gələcək əməkdaşlıq əlaqələrindən danışıb. Görüşdə qarşılıqlı perspektiv layihələrin həyata keçirilməsinin zəruriliyi ilə bağlı fikir mübadiləsi də aparılıb.

# Bəhruz Quliyev: "Xalqımız qarşıdakı dövrlərdə də Prezidentin sosial siyasətindən bəhrələnəcək"



"Dövlətimizin yürütdüyü sosial siyasəti əsas tərkib hissəsində insan faktoru dayanır və bu amil Prezident İlham Əliyevin prioritet olaraq istiqamətləndirdiyi vəzifələrdən biridir". SİA xəbər verir ki, bu fikirləri Olaylar.az-a "SƏS" qəzetinin baş redaktoru, ekspert Bəhruz Quliyev sözügedən mövzuya münasibətini açıqlayarkən deyib.

Onun sözlərinə görə, sosial siyasət bütün sferaları əhatə edir və Onun da vurğuladığı kimi, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır: "Ölkə rəhbərimizin müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq reallaşdırılan məqsədyönlü dövlət siyasəti də məhz ona istiqamətləndirilib ki, dövlətin dinamik iqtisadi inkişafından əhalinin bütün təbəqələri bəhrələnə bilsinlər. Bu baxımdan, Azərbaycanda cəmiyyətin ayrı-ayrı təbəqələri arasında ədalətli resurs bölgüsünü təmin etmək məqsədilə müxtəlif tədbirlər həyata keçirilir və beləliklə, bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər. Elm, təhsil, idman, mədəniyyət sahələrində çalışan insanlarımıza, eləcə də şəhid və hərbçi ailələrinə ayrılan diqqət və qayğı, onların mənzillərlə təmin edilməsi faktorları bu reallığı özündə kifayət qədər təcəssüm etdirməkdədir. İstər birdəfəlik, istərsə də ömürlük təqaüdlərin ayrılmasından tutmuş, mənzil şəraitlərinin yaxşılaşdırılmasına qədər, habelə ehtiyacı olan insanların müalicələrinin təmin edilməsi kimi məsələlər davamlı şəkildə Prezident İlham Əliyev cənablarının qərarları əsasında həyata keçirilməkdədir. Əsas məqam isə budur ki, ölkə başçımız bu siyasəti ardıcıllıqla gerçəkləşdirir".

"Həm də bir media təmsilçisi olaraq qeyd etmək istərdim ki, cənab İlham Əliyevin sərəncamı ilə jurnalistlər üçün tikilmiş binalarda mətbuat işçilərinin 2013-2017-ci illərdə mənzillərlə təmin olunmaları, eləcə də yeni binanın tikintisi bu sahəyə göstərilən diqqət və qayğısının bariz göstərici olaraq qiymətləndirilir", deyə vurğulayan "SƏS" qəzetinin baş redaktoru bu qayğıdan yalnız jurnalistlərin deyil, eləcə də yaradıcı insanların da yararlandığını bildirib: "Əbəs deyil ki, 2017-ci ildə istifadəyə verilmiş ikinci binanın sakinləri arasında həyatdan köçmüş mətbuat işçilərinin və yaradıcı insanlarımızın ailələri məskunlaşıblar. Bu, Prezident İlham Əliyevin sosial siyasətində formalaşmış nəcibliyin, alicənablığın və qayğının məntiqi göstəricisidir. Hesab edirəm ki, Azərbaycan xalqı qarşıdakı dövrlərdə də bu kimi dövlət qayğısından yararlanacaq, Prezident İlham Əliyevin sosial siyasətinin uğurlarından bəhrələnəcəklər".

Ekspert son olaraq deyib ki, əldə edilən hər bir nailiyyətin arxasında güclü Lider və uğurlu siyasət faktoru dayanır: "Bu faktor məhz Azərbaycan iqtisadiyyatının qüdrətinin göstəricisidir. İqtisadiyyatımızda əldə edilən hər bir müvəffəqiyyət bilavasitə insanlarımızın sosial həyatlarının daha da yaxşılaşmasına stimul verməkdədir".

*Rövşən NURƏDDİNOĞLU*

# "Cənab Prezidentin tutduğu yol çox düzgündür"

"Cənab Prezident təkcə hərbçilərə, şəhid ailələrinə deyil, bütün təbəqələrdən olan insanlara diqqət və qayğısını göstərir. Dövlətimizin iqtisadi imkanları artdıqca, vəziyyət yaxşılaşdıqca bütün insanların, vətəndaşların, təbəqələrin sosial durumunun yaxşılaşdırılması üçün müxtəlif proqramlar həyata keçir. Bunu hətta biz jurnalistlər də öz üzərimizdə görürük". Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib. Sədr müavinin sözlərinə görə, cənab Prezidentimizin ərazi bütövlüyümüzün təmin olunması və hərbçilərə diqqətin artırılması, onların modern texnologiyalarla təmin olunması, həm də ailə vəziyyətlərinin, sosial durumlarının yaxşılaşması ilə bağlı çox ciddi şəkildə proqramlar (istər dünyasını dəyişmiş hərbçilərimiz üçün, istərsə də hal-hazırda sağlam fəaliyyət göstərən hərbçilər üçün) işlənir: "Təcrübə də göstərir ki, bu diqqət və qayğı da təsadüfi deyil və nəticəsiz qalmır. 2016-cı ilin aprel döyüşləri, 2018-ci ildə Naxçıvan MR-da baş verən hadisələr zamanı Azərbaycan Ordusu özünün gücünü və nəyə qadir olduğunu göstərdi. Ordumuzun modern silahlarla silahlanması, texniki baxımdan inkişaf etməsi və vətənpərvərlik ruhunun yüksədilməsi üçün kifayət qədər addımlar atılır. Təbii ki, bu addımlar da artıq öz nəticələrini verməyə başlayıb. O baxımdan hesab edirik ki, cənab Prezidentin tutduğu yol çox düzgün yoldur. Dövlət başçısı diqqət və qayğısını əsirgəmədikcə bizim ordumuz, bütün o müdafiə qabiliyyətimiz də güclənir və özünün nəticəsini verir".

# Özünə "Aslan" adı qoyan Allahverdi İsmayılovun kirli keçmişi Birinci yazı

## İlyas İsmayılovdan dəqiq təsbit: "Məzhəbi bəlli deyil"

***Sosial şəbəkələrin Azərbaycan seqmenti onun adına tez-tez rast gəlir. Xüsusən də "Facebook" istifadəçilərinin sözünü edəcəyimiz şəxsin özəl profilinin və rəsmi səhifəsinin izləyicisi olub-olmamağı bu məsələdə heç bir önəm daşımır.***

Heç kimə sirr deyil ki, "Facebook" hazırda dünyanın ən çox gəlir gətirən şirkətlərindən biridir və fantastik rəqəmləri əhatə edən həmin pullar adıçəkilən sosial şəbəkədə aparılan reklamlar sayəsində formalaşır. Əlbəttə, hər hansı bir qurumun və ya fərdin mənsub olduğu ölkənin qanunları və beynəlxalq hüquq çərçivəsində özünü təbliğ etməsi, bu məqsədlə müasir informasiya texnologiyalarından yararlanması qəbahət deyil. Üstəlik, hər bir vətəndaşın öz düşüncələrini istənilən platformada sərbəst şəkildə ifadə etmək və öz həmfikirlərini başına toplamaq haqqı var. Fəqət bu da bir gerçəklikdir ki, hər bir yenilik ondan sui-istifadə edənləri də meydana çıxarır. Nəticədə elmi-texniki tərəqqinin nailiyyətlərini tam mənimsəməmiş insanlar müxtəlif fırıldaqçıların qurbanına çevrilir. Yada salaq: dəmir yol nəqliyyatının yeni meydana çıxdığı günlərdə vağzallarda saxta bilet alverçiləri dolaşar, şəhərlərarası telefon xəttlərinin quraşdırıldığı ilk zamanlarda rabitə direklərinə hansısa abunəçinin hesabına saatlarla danışan dələduzlar dırmaşar, mobil telefonların təzə-təzə populyarlaşdığı dönəmlərdə isə eskort qız qılığına girənlər kontur çırpışdırardılar.

Hazırda manyaklar, oğrular və dələduzlar "Facebook", "Twitter", "VK" kimi sosial platformalardan öz qurbanlarını tələyə salmaq üçün istifadə edirlər və bu barədə dünyanın bütün ölkələrində minlərlə cinayət işi mövcuddur. Odur ki, informasiya texnologiyalarının və sosial şəbəkələrin inkişafı bütün dünyada bir çox suallar doğurur. Qərb ölkələrində bu suallar təkcə etik xarakter daşımır, həm də vətəndaşların azadlıq və hüquqlarını əhatə edən müstəviyə keçib. Saysız-hesabsız qeyri-kommersiya təşkilatları müxtəlif ictimai müzakirələr, maarifləndirmə və advokasiya kampaniyaları təşkil edərək qanunvericilərin diqqətini yeni kommunikasiya vasitələrinin təşəkkülündən doğan problemlərə cəlb edirlər. Belə qəbildən olan problemlər dünyanın aparıcı elmi mərkəzləri də daxil olmaqla hazırda çox ciddi institutlar tərəfindən araşdırılır, səslənən təkliflər çeşidlənərək qanunların qəbulu prosesində nəzərə alınır. Bununla belə, hələ heç bir dövlət və cəmiyyət müasir informasiya-kommunikasiya sistemlərinə adekvat şəkildə öz kiber təhlükəsizliyini təmin etmiş deyil. Kiber-texnologiyaların vətəni sayılan Amerika Birləşmiş Ştatlarında son prezident Donald Trampın qələbəsi üçün edilmiş xarici təsirlər müzakirə mövzusudursa, Azərbaycan kimi müstəqilliyini yenicə qazanan ölkələrdə ictimai rəyə basqılar təşkil etmək heç şübhəsiz daha asandır.

Son illər sosial şəbəkələrin Azərbaycan seqmentində öz ictimai çəkisinə, intellektinə və peşəkarlığına uyğun olmayan şəkildə məşhurlaşan, daha doğrusu məşhurlaşdırılan bir çox isimlər var. Həmin şəxslərin bioqrafiyası, intellekti və peşəkar imkanları yüngülvari təhlil edildikdə məlum olur ki, məsələn, Mehman Hüseynov kimi üç-dörd cümləni imla xətasına yol vermədən yaza bilməyəcək adamların yüzminlərlə izləyici kütləsinin formalaşmasında təkcə süni "tərəfdar toplama proqramları"ndan istifadə edilməyib, eyni zamanda ortada Azərbaycana qarşı təzyiq rıçaqları formalaşdırmaqda maraqlı olan qüvvələr mövcuddur. O da bir gerçəklikdir ki, bu qüvvələr arasında kimin əsas, kimin ikinci dərəcəli olmasına baxmayaraq, işin içində həmişə Ermənistan xüsusi xidmət orqanlarının trolları mövcuddur. Elə buna görə də sosial şəbəkələrin orta statistik Azərbaycan istifadəçisi hər hansı bir informasiya ilə, xüsusən də ödənişli şərtlərlə yayınlanan məlumat və çarxlarla rastlaşdıqda özünə sual etməlidir: bu məlumatın yayılması üçün edilən ödənişin məqsədi nədir?



Aslan Ziyəddin oğlu İsmayılov adlı keçmiş vəkilin ümumi məlumatları yeni media qurumları təşəkkül edənə qədər Azərbaycan cəmiyyətinə demək olar ki, xüsusi heç nə demirdi. Yazılı və elektron media orqanları onun personasına ciddi maraq göstərmirdilər. O, aparıcı nəşrlərin səhifələrinə yalnızca aradabir, böyük xahiş-minnətdən sonra çıxa bilirdi. Ölkədəki qeyri-hökumət təşkilatlarının qurucuları, vətəndaş cəmiyyəti liderləri üçün də Aslan İsmayılov ictimai maraqlar baxımından xüsusi əhəmiyyət kəsb edən fiqur deyildi. Onun adı gələndə III sektorun fəal nümayəndələrinin gözləri önündə öz merkantil maraqları uğruna hər şeyi və hər kəsi ayaqlar altına almağa hazır olan bir tip canlanırdı. Azərbaycan siyasətinin aparıcı liderlərinin heç biri- Heydər Əliyev, Əbülfəz Elçibəy, İsa Qəmbər, Etibar Məmmədov, Rəsul Quliyev və başqaları- onu yaxına buraxmır, necə deyərlər, ipinin üstünə odun sərmirdilər. Bu da səbəbsiz deyildi. İstər milli-azadlıq hərəkatının şinelindən çıxmış siyasi partiya liderləri, istərsə də vaxtilə SSRİ kimi nəhəng bir imperiyanın idarəçiləri sırasına yüksəlmiş və Azərbaycanın müstəqilliyi uğrunda qətiyyətli addımlar atmış Heydər Əliyev kimi təcrübəli siyasətçi Aslan İsmayılovun Azərbaycana kimlər tərəfindən, hansı tapşırıqlarla göndərildiyini yaxşı bilirdilər. O, 1988-ci ilin fevral ayının son günlərində baş vermiş məşhur "Sumqayıt hadisələri" üzrə SSRİ tərəfindən açılmış cinayət işi üzrə məhkəmədə "dövlət ittihamçısı" statusunda çıxış etmişdi və hətta özünə bəraət qazandırmaq məqsədi ilə 2010-cu ildə çap etdirdiyi kitabında da qeyd etdiyi kimi, bu vəzifə ona təsadüfən tapşırılmışdı. Aslan İsmayılovun özünün müxtəlif çap və elektron resurslarda açıqladığı kimi, o, Rusiyanın Krasnodar şəhərində iki il tornaçılıq etdikdən sonra həmin şəhərdə qəbul olunduğu Kuban Dövlət Universitetinin hüquq fakültəsini 1983-cü ildə bitirib.

Onun bioqrafiyasındakı bu məqam Siyavuş Novruzovun timsalında Yeni Azərbaycan Partiyasının funksionerlərinin də diqqətindən yayınmayıb. YAP funksioneri 2012-ci ilin əvvəllərində jurnalistlərə verdiyi açıqlamasında Aslan İsmayılovun hərbi xidmətdə olmamasına diqqət çəkərək Ziyalılar Forumu adlanan illeqal qurumu "fərarilər klubu" adlandırmış və demişdi: "Axı sən nə həyat keçmisən? Yaxşı hüquqşünas olsaydın, Moskva Dövlət Universitetində, yaxud Leninqradda oxuyardın. Ən azından Tiflis Dövlət Universitetini bitirərdin. Hansısa bir institut qurtarıb deyirsən ki, həyat yolu keçmişəm. Sən Azərbaycanda 20 ildir özünə yer tapa bilmirsən, nə həyat yolu keçəcəksən?"

Millət vəkilinin bu sözləri Aslan İsmayılov tərəfindən süngü-bıçaqla qarşılanmış və o, məzunu olduğu fakültəni keçmiş SSRİ-nin "ən güclü hüquq məktəbi" adlandırmışdı. Siyavuş Novruzov haqlıydı. Universitetin rəsmi saytında qeyd olunur ki, daha əvvəllər aqronomluq üzrə ixtisaslaşmış və Pedoqoji İnstitut kimi fəaliyyət göstərmiş həmin ali məktəb 18 fevral 1970-ci ildə Kuban Dövlət Universiteti statusu alıb. Lakin 1982-ci ildə aparılmış xüsusi yoxlamaların nəticəsinə görə, məzunların bilik səviyyəsi "universitet" adına layiq olmayıb. Həmin il rektor təyin edilən Vladimir Andreyeviç Babeşko KDU-nu ortabab bir ali məktəb səviyyəsinə qaldırmaq üçün təxminən 10 il vaxt sərf edib. Bu faktlardan da açıq göründüyü kimi, baza hüquq təhsili olduqca aşağı səviyyədə olan Aslan İsmayılov isə artıq həmin vaxt Krasnodarda məhkəmə orqanlarında çalışırdı. Yenə öz imzası ilə təsdiq etdiyi məlumata əsasən, 1988-ci ilin fevralından sonra Krasnodara erməni axını başlamış, ermənilər onu dəfələrlə təhdid etmiş və o, işlədiyi rayonun Dövlət Təhlükəsizlik Komitəsinin Litvenko adlı sədrinin himayəsinə sığınmışdı. Görünür, yerli DTK-nın sədri Litvenko Aslan İsmayılovun qayğısına xüsusi qaldığı üçün evinin qarşısına mühafizəçilər qoymuş, hətta onu "hədələyən" erməniləri günlərlə DTK-nın zirzəmisində saxlamışdı. Belə bir xüsusi himayənin məğzində dayanan münasibətlər barədə fikir yürütməyi oxucuların öhdəsinə buraxıb Aslan İsmayılovun Azərbaycana qayıdış tarixçəsinə nəzər salaq.

Aslan İsmayılov bu barədə yazır: "1988-ci ilin sentyabr ayında növbəti məzuniyyət ərəfəsində Bakıda olarkən o zamankı Respublika Prokuroru İlyas İsmayılovun qəbuluna getdim. İlyas İsmayılov məni qəbul edib dinlədikdən sonra dərhal Respublika Prokurorluğunun Mərkəzi Aparatına işə qəbul olunmağım barədə razılıq verdi".

Yenə Aslan İsmayılovun öz dilindən səslənən fakta görə, o, İlyas İsmayılovun əmri ilə 1989-cu ilin aprel ayının 3-də Azərbaycan SSR prokurorluğunun Məhkəmələrə nəzarət şöbəsində prokuror təyin edilir. Bir müddət sonra isə Cavanşir İsmayılovun əvəzinə artıq məhkəməyə göndərilmiş "Sumqayıt hadisələri" işi üzrə dövlət ittihamçısı təyin edilir. Həmin işin yekununda dövlət ittihamçısı kimi etdiyi çıxışda isə soydaşlarımıza qarşı ölüm hökmü də daxil olmaqla ağır cəzalar istəyir. Aslan İsmayılov 1993-cü ilin may ayının 28-də Prezident Aparatının Hüquq şöbəsində işə düzəlir. 1992-ci ildə hakimiyyətə gəlmiş AXC-Müsavat ittifaqının Baş prokuroru İxtiyar Şirinov və ö dövrdə Bakı şəhər prokuroru işləmiş Çingiz Qənizadəyə qarşı apardığı kampaniyanı uduzduğundan özünə yeni iş tapmalı olur. Lakin cəmi bir neçə gün sonra Gəncədə hərbi qiyam baş verir və İsmayılov iyun ayının birinci yarısında Prezident Aparatının Hüquq şöbəsinin o zamankı müdiri Fazil Mustafayevin göstərişi ilə Gəncəyə yollanan deputat istintaq komissiyasının tərkibinə "ekspert" qismində daxil edilir. O, bu tərkibdə "Prezident Elçibəyin nümayəndəsi" olduğunu iddia etsə, Fazil Mustafayev həmin iddianı təkzib edərək Aslan İsmayılovun yalnızca "Prezident Aparatında məsləhətçi vəzifəsində çalışan nümayəndə" olaraq komissiyaya qatıldığını vurğulayır. 4 iyun qiyamından sonra Prezident Aparatının Hüquq şöbəsinin müdiri Fazil Mustafayev və onun müavini, Aslan İsmaylovu yeni işə düzəltmiş Həmid Əliyev vəzifələrini tərk edir. Lakin bütün əxlaq və siyasi etiket qaydalarının ziddinə olaraq Aslan İsmayılov vəzifəsindən möhkəm yapışır.

O, Prezident Aparatından 1994-cü ilin mayında qovulur. Səbəb isə bu olur ki, Prezdent Aparatının yüksək ranqlı şəxslərinə Aslan İsmayılovun mətbuat konfransı keçirərək Heydər Əliyevə qarşı açıqlamalar verəcəyi barədə məlumatlar daxil olur. İfşa olunmuş Aslan İsmayılov 10 dəqiqə ərzində vəsiqəsi əlindən alınaraq binadan çıxarılır.

Aslan İsmayılov özü də danmır ki, Azərbaycanın hüquq-mühafizə orqanlarında vəzifə tutmasında, irəli çəkilməsində, hətta 1993-cü ilin avqustunda Prezident Aparatının əməkdaşı kimi Milli Məclisdə Heydər Əliyevin ona söz verməsində keçmiş Baş prokuror və Ədliyyə Naziri İlyas İsmayılovun həlledici dəstəyi olub. Məlum olduğu kimi, İlyas İsmaylov 1995-ci ilin yanvarında Ədliyyə naziri postundan uzaqlaşdıqdan sonra "Ədalət" partiyasının quruculuğuna başlayıb və bu partiyaya Aslan İsmayılov da qoşulub. 1990-cı illərin ikinci yarısındakı ictimai-siyasi proseslərdən bixəbər yeni nəsil nümayəndələrini aldatmaq üçün "mən heç vaxt heç bir partiyanın üzvü olmamışam" desə də, onun təkcə "Ədalət" yox, İlyas İsmaylovun yaratdığı partiya ilə birləşmiş ADP-nin sıralarında fəaliyyət göstərməsi bəllidir.

Aslan İsmayılovla "Ədalət" liderinin münasibətlərinin sərinləməsi isə olduqca ilginc bir hadisəyə bağlıdır. Aslan İsmayılov günlərin birində öz sədrinə zəng edib və danışıq bitdikdən sonra telefon açıq qaldığından İlyas İsmayılovun yanındakı adama onun haqqında dediyi bu sözləri eşidib: "Bunun məzhəbi bəlli deyil". Bəli, təxminən 20 ili əhatə edən uzun bir zaman dilimində İlyas İsmayılov kimi təcrübəli fiqur Aslan İsmayılovun "məzhəb"ini müəyyən edə bilməmiş, daha dəqiqi, onun mahiyyətini yaxşı açmışdı- onu yaxın adamlarına məzhəbi bəlli olmayan, fürsətcil və dəngəsiz adam kimi xarakterizə etmişdi. Bu barədə İlyas İsmayılovun oğlu Etimad İsmayılov tərəfindən mətbuata geniş açıqlama verilib. Ölkənin əksər aparıcı xəbər portalllarında yayınlanan həmin açıqlamada Aslan İsmayılov haqqında Etimad İsmayılov bunları deyir: "Aslan İsmayılov yenə də İlyas İsmayılovu hədəfə alıb. Özü də hörmətsiz şəkildə. Atası yaşında adama "İlyas" deyir. Nəyə görə edir bu "qoçuluğu", hansı namussuz biqeyrətə xoş gəlmək istəyir, mənə bəllidir..."

Zaman-zaman Ədalət Partiyasından və İlyas İsmayılovdan öz əxlaqına uyğun bir şəkildə aralanan Aslan İsmayılovun növbəti dayanacaqlarından biri Rüstəm İbrahimbəyovun çətirinin altı olur. Azərbaycan hakimiyyətindən incik düşmüş və 2013-cü il seçkilərində Rusiyanın əlaltısı kimi prezidentliyə namizəd olmağa hazırlaşan Rüstəm İbrahimbəyov 2009-cu ildə Ziyalılar Forumu adlı bir qurum yaratmışdı. Aslan İsmayılov həmin qurumun yaradıcılarından olmaqla özünü Rüstəm İbrahimbəyovun əsas dayaqlarından biri kimi göstərirdi. Ancaq bir müddət sonra- 2012-ci ilin yanvarında Ziyalılar Forumunu tərk etdi. O dövrdə mətbuata sızan məlumata görə, Ziyalılar Forumunda Eldar Namazovla yola getməmiş və ona qarşı bir sıra ittihamlar irəli sürmüşdü. Həmin qurumdan istefası barədə isə "Trend" İnformasiya Agentliyinə belə bir açıqlama vermişdi: "Necə ki, 23 il heç bir təşkilatda olmamışdım, yenə də təkbaşına fəaliyyətimi davam etdirəcəm".

Əlbəttə, onun 23 il ərzində guya heç bir təşkilatda təmsil olunmaması barədə danışdıqları- artıq yuxarıda qeyd etdiyimiz kimi- ağ yalan idi, lakin öz fəaliyyətini təkbaşına davam etdirmək barədə bəyanatının üstündən də təzliklə qara xətt çəkdi. 2013-cü ilin sentyabrında Rusiyanın siyasi layihəsi olması heç kimdə şübhə doğurmayan Milli Şura adlı qurumun mitinqlərində çıxış edir, prezidentliyə namizəd Cəmil Həsənli üçün səs istəyir, müxalif namizədi Azərbaycanın xilaskarı kimi təbliğ edirdi. O zaman bütün ciddi ekspertlər Cəmil Həsənlini namizəd göstərmiş müxalifətin ağır uğursuzluğa düçar olacağını proqnozlaşdırırdılar. Bu proqnoz özünü doğrultdu. Aslan İsmayılov isə öz mövqeyində daha bir dəfə kəskin dönüş edərək cəmiyyətin gözünə daha bir dəfə kül üfürdü: "Çoxlarından fərqli olaraq Milli Şura yarananda onu xilaskar kimi görməmişdim".

(ardı var)

**Taleh Şahsuvarlı**

# Dövlət başçısı milli-mənəvi dəyərlərimizə, irsimizə diqqət və qayğı ilə yanaşır

***Azərbaycan müstəqillik əldə etdikdə sonra milli-mənəvi dəyərlərimizə dövlətimiz tərəfindən diqqət daha da atmışdır. Dilimiz, dinimiz və mədəniyyətimiz kimi dəyərlərə verilən qiymət bizim tarixi yaddaşımıza olan diqqət və qayğıdır. Daş kitabələrdən soraq verən dəyərlərimizi yaşatmaq və qloballaşan dünyamızda varlığımızı əsaslandıran və sübut edən nümunələri dünyaya təqdim edərək, Azərbaycan xalqına məxsus olan böyük, bəşəri keyfiyyət və xüsusiyyətlərin tarixin dili ilə təbliğ və təşviqi milli-mənəvi dünyamıza, irsimizə olan qayğıdır. Bu dəyərlərdə Azərbaycan vətəndaşı özünü tapır və kimliyini bir daha görür.***

Azərbaycan Prezidenti İlham Əliyevin milli-mənəvi dəyərlərimizə, tariximizə, ədəbiyyatımıza və musiqimizə böyük qayğı ilə yanaşaraq, böyük tarixi şəxsiyyətlərin yubilelərinin qeyd olunması ilə bağlı sərəncamlar imzalamışdır. Bu günlərdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, yazıçı və dramaturq Cəfər Qafar oğlu Cabbarlının anadan olmasının 120 illik yubileyinin qeyd edilməsi haqqında imzalıdığı Sərəncamı dövlət başçısının söz-sənət dünyamıza, ədbiyyatımıza, poeziyamıza olan diqqətinin daha bir nümunəsidir. XX əsr Azərbaycan ədəbiyyatının geniş şöhrət tapmış nadir simalarından olan Cəfər Cabbarlı milli ədəbiyyatın parlaq ənənələrini qorumaqla bərabər, yenilik və müasirlik uğrunda mübarizəni yaradıcılığının əsas qayəsinə çevirmiş ziyalıdır. Sərəncamda qeyd olunduğu kimi, qüdrətli ədib və dramaturq Cəfər Cabbarlının anadan olmasının 120-ci ildönümünün yüksək səviyyədə qeyd olunmasını təmin etmək məqsədi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, böyük ədib və dramaturq Cəfər Cabbarlının 120 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb, həyata keçirəcək.



## GÜCLÜ XARAKTERLƏR VƏ KOLORİTLİ OBRAZLARLA BƏDİİ-ESTETİK FİKİR SALNAMƏMİZƏ MİSİLSİZ TÖHFƏLƏR VERƏN BÖYÜK DRAMATURQ

Dramaturgiyamızın təşəkkülü və yüksəlişi tarixində yeni mərhələnin təməlini qoyan C.Cabbarlının əsərləri milli teatrda mühüm hadisə kimi dəyərləndirilmiş, uzun illər boyu tamaşaçıların bir neçə nəslinin estetik zövqünün formalaşmasında əvəzsiz rol oynamışdır. Ədəbi-mədəni proseslərin fəal qurucularından biri kimi, sənətkar yaratdığı güclü xarakterlər və koloritli obrazlarla bədii-estetik fikir salnaməmizə misilsiz töhfələr vermişdir. C.Cabbarlı şəxsiyyət azadlığının və humanizmin, milli azadlıq və istiqlal ideallarının tərənnümçüsü olmuş, çoxcəhətli ədəbi və ictimai fəaliyyəti boyunca daim xalqımızın dünya mədəniyyəti səhnəsində layiqli mövqe qazanmasına çalışmışdır. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bir çox vətənpərvər ruhlu şairlərimiz kimi, milli rəmzlərimizə, Azərbaycan bayrağına həsr etdiyi şeirlər onun torpağa bağlılığının ifadəsidir.

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od Yurdunun yarpağı! -

yazan şair, bunun göy yarpaqlı, al çiçəkli yaşıl otlar topası olduğunu göstərir. Lakin çiçəklərin solduğunu, otların yerdə tapdandığını nəzmə çəkən C.Cabbarlı bizim bayrağımızın ucaları sevdiyini bildirir. Onun rənglərini belə qələmə alır:

Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yulduz da səkkiz hərli OD YURDU
Əsarətin gecəsindən flirsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur.
Şu hilal da türk bilgisi, düzgün sevgi nişani,
Yurdumuzu qucmuşdur! Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

Cəfər Cabbarlı yaradıcılığa şeirlə başlasa da, ən məşhur əsərlərini dramaturgiya janrında yazmış və Azərbaycan dramaturqu və teatr xadimi kimi tanınmışdır. Xalqın tərəqqisinin ana xəttini mədəniyyətin, teatrın inkişafında görən sənətkar bir-birinin ardınca gözəl səhnə əsərləri yaratmış, eyni zamanda, incəsənətin müxtəlif sahələrində də fəaliyyət göstərmişdir. Yazıçı "Solğun çiçəklər", ilk tarixi pyesi olan "Nəsrəddin şah" kimi əsərləri ilə şöhrət tapmışdır. Azərbaycanda, ilk dəfə olaraq, tarixi dram janrını milli-azadlıq ideyaları ilə, geniş xalq kütlələrinin şah mütləqiyyətinə qarşı çıxışı ilə zənginləşdirmişdir. O, "Trablis müharibəsi" tarixi faciəsi ilə Nuru Paşanı bədii ədəbiyyata gətirən ilk azərbaycanlı dramaturqdur. Əsərin ilk tamaşası Novruz bayramı ərəfəsində 1918-ci il martın 10-da Bakıdakı "İsmailiyyə" binasında göstərilib. "Trablis müharibəsi" və "Ədirnə fəthi" əsərlərini müəllif ömrünün gənclik çağında 18 yaşında - yaradıcılığının ilkin mərhələsində yazmışdır.

Cəfər Cabbarlı "Trablis müharibəsi" və "Ədirnə fəthi" əsərlərinin ilk tamaşasından sonra verilən ziyafətdə çıxışı zamanı "Trablis müharibəsi"ndə Nuru Paşanın hərbi xadim və şəxsiyyət kimi bədii obrazını təsvir etməklə yanaşı, generalın Bakının xilası uğrundakı zəfər yürüşündən bəhs olunacaq yeni əsərini yazacağına söz verib. Mənbələrdə göstərilir ki, C.Cabbarlının alovlu nitqi Nuru Paşanı heyran qoyub.

Yazıçının "Bakı müharibəsi" əsərində 1918-ci ilin martında Bakıda baş verən qanlı hadisələr, erməni daşnaklarının azərbaycanlılara qarşı etdiyi zülmlər təsvir olunur, başda Nuru Paşa olmaqla, qəhrəman xilaskar türk ordusunun şəhəri erməni vəhşilərindən xilas etməsindən danışılır. Həmin faciə A.M.Şərifzadənin rəhbərliyi ilə "Türk ocağı"nda tamaşaya qoyulmuş, lakin əsər sonradan tapılmamışdır.

Cəfər Cabbarlı 1922-1923-cü illərdə iki dəfə həbs olunub və işgəncələrə məruz qalıb. Cəfər Cabbarlının qızı Gülarə Cabbarlı bu barədə xartirələrində yazırdı:"Atamı həmişə pantürkizmdə günahlandıraraq, onu həbs etmək üçün məqam axtarmışlar. 1923-cü ildə onu bir neçə dəfə təhlükəsizlik orqanlarına çağırmışlar. Orada 2-3 ay əzab-əziyyətlər vermişlər. Atamın "Ədirnə fəthi" və "Ulduz" ("Trablis müharibəsi") əsərlərində Türkiyə gənclərinin azadlıq uğrunda mübarizəsi əsas yer tutur. Elə buna görə də, ona amansız işgəncələr vermişlər. Bütün bu və digər məsələlərlə bağlı təqiblərdən, əzab-əziyyətlərdən qorxmayan, usanmayan atam heç bir dostunun adını çəkməmişdir".

1925-ci ildə Dövlət Teatrı üçün Şekspirin "Hamlet" faciəsini tərcümə etmiş, 1927-ci ilin əvvəllərində "Dilbər" hekayəsini çap etdirmiş, eyni zamanda, F.Qladkovun "Sement" əsərindən bir parça tərcümə etmişdi. 1928-ci ildə Lev Tolstoyun "Uşaqlıq" povestini və Maksim Qorkinin "Üzügülər" hekayəsini tərcümə və çap etdirmişdi.

## AZƏRBAYCANIN İLK MİLLİ KİNO SSENARİSTİ

Bütün həyatını teatrla bağlamasına baxmayaraq, dramaturq incəsənətin vacib sahələrindən biri olan kinoya da çox böyük əhəmiyyət verir. Uzun müddət Azərbaycan Dövlət Dram Teatrında ədəbi-hissə müdiri işləyən professional dramaturq o vaxt yenicə inkişaf edən kino sənəti ilə çox maraqlanırdı. 1928-ci ildə Bakı Kino Fabrikində Mirzə Fətəli Axundovun vəfatının 50 illiyi münasibətilə "Hacı Qara" əsərinin motivləri əsasında "Sona" adlı kino-film çəkilir. "Hacı Qara" bədii filmi ilə Azərbaycanın ilk milli kino ssenaristi kimi tanınan Cabbarlı Azərbaycan qadınlarını qara çadradan xilas edib siyasi, iqtisadi və ictimai həyata çıxartmaq üçün kinematoqrafın böyük imkanlarından istifadə etmək fikrində idi. O, bu arzusunu "Sevil" filmi ilə həyata keçirdi. "Sevil" filmi böyük müvəffəqiyyət qazandı. Kinodakı bu işindən hədsiz dərəcədə sevinən Cabbarlı "Almaz" və "1905-ci ildə" pyesləri üzrə kinossenarilər yazdı və "Sevil"dən sonra dərhal "Almaz" filminin çəkilişlərinə başladı.

Sona xanım Cabbarlının xatirələrindən məlum olur ki, yazıçı ömrünün son illərini kinostudiyadakı fəaliyyətinə sərf etmiş, həyatı qədər sevdiyi teatrdan özü istəmədən uzaqlaşmağa məcbur olmuşdu.

Kino Cəfər Cabbarlını getdikcə daha çox cəlb edirdi. Azərbaycanda sənətin bu sahəsində lazımi kadrların olmaması vəziyyəti çox ağırlaşdırmışdı. Cabbarlı kino işlərini canlandırmaq məqsədi ilə əlindən gələni əsirgəmir, orada həm ssenarist, həm də rejissor kimi çalışırdı. Cəfər Cabbarlının coşqun bir həvəs və enerji ilə yazıb-yaratdığı bir zamanda, gözlənilmədən vəfat etməsi Azərbaycan ədəbiyyatı və teatrı üçün, Azərbaycan xalqı üçün böyük bir itki idi.

***Zümrüd BAYRAMOVA***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük ədib və dramaturq Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb*

## Bakı metrosunda "Azərbaycan rəssamları" sərgisi təşkil ediləcək

Dekabrın 20-dən Bakı metrosunda Milli İncəsənət Muzeyi ilə birgə Azərbaycanın görkəmli rəssamlarının sərgisi təşkil olunacaq. Bu barədə AZƏRTAC-a "Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədov deyib. O bildirib ki, sərgi 6 ay davam edəcək. Metronun "Nəriman Nərimanov" stansiyasında keçiriləcək sərgidə görkəmli rəssamların 85 əsəri nümayiş olunacaq. Sərgidə, həmçinin muzeyin nümayəndələri əsərlər barədə sərnişinlərə ətraflı məlumat verəcək.

## Türk dünyası üçün 2019-cu il "İmadəddin Nəsimi ili" elan olunub



Türk dünyası üçün 2019-cu il anadan olmasının 650-ci ildönümü şərəfinə böyük Azərbaycan şairi İmadəddin Nəsimi və anadan olmasının 125-ci ildönümü münasibətilə türkiyəli görkəmli el sənətkarı Aşıq Veysəl ili elan olunub. AZƏRTAC xəbər verir ki, bu barədə qərar dekabrın 18-də Türkiyənin Kastamonu şəhərində TÜRKSOY-a üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasının 36-cı iclasında qəbul olunub.

# "Vidadi İsgəndərlinin ya başı xarabdır, ya da dəlidir"

*"Aslan İsmayılov istəyir ki, xaricdən desinlər ki, "malades, sabaka" və sığınacaq versinlər, o da rədd olub getsin"*

**Son vaxtlar daxili və xarici məkrli qüvvələr milli və dövlətçilik maraqlarına qarşı yaramaz fəaliyyətlərini daha geniş formada sərgiləməyə başlayıblar. Bu isə, onların ağalarından daha sərt tapşırıqlar aldıqlarını göstərir. Söhbət etdiyimiz müsahiblərimiz Azərbaycana qarşı qərəzli mövqe sərgiləyən Vidadi İsgəndərli, Məhəmməd Mirzəli, Xədicə İsmayıl, Orduxan Teymurxan, Tural Sadıqlı və onlara dəstək göstərən Aslan İsmayılov, Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı kimilərin satqın və xəyanətkar olduqlarını bildirdilər.**

## ASDP-nin sədri, millət vəkili Araz Əlizadə: "Siyasi mühacirlər"in ataları da, anaları da, arvadları da, uşaqları da puldur"



- Əminliklə deyə bilərəm ki, sosial şəbəkələrdə təhqiramiz ifadələrlə çıxış edən Vidadi İsgəndərli, Qurban Məmmədov, Orduxan Teymurxan, Aslan İsmayılov və bu kimi bədnamlara laşlar az verildiyi üçün mənəviyyatsız və əxlaqsız mövqelərini ortaya qoyublar. Deyə bilərsiniz ki, laş nədir? İtə verilən sıyığa laş deyirlər. Vidadi İsgəndərli elə bilirdi ki, ömrü boyu prokurorluqda işləyib rüşvət alacaq. A.İsmayılov da elə eyni şeyi düşünürdü. Q.Məmmədov da elə bilirdi ki, böyük xidmətləri olub, ona yağlı əpbəy verəcəklər. Yəni bunların hamısı pul davası aparırlar. Bir sözlə, bunları nə Azərbaycan xalqı, nə öz valideynləri, nə də ki, azərbaycanlı uşaqların gələcəyi kimi məsələlərin heç biri maraqlandırmır. "Siyasi mühacirlər"in ataları da, anaları da, arvadları da, uşaqları da puldur. Bunlar pula görə hər şeyi satarlar. Əslində, onları ermənilərlə eyniləşdirmək erməniləri təhqir etmək deməkdir. Çünki onlar ermənidən də pisdirlər. Hər biri dişi çıxarılmış ilandırlar, dişləyə bilməsələr də, hürmək qabiliyyətinə malikdirlər. Özünü "hüquqşünas" kimi təqdim etməyə çalışan A.İsmayılov çox hiyləgər insandır, əgər ona insan demək mümkünsə. O istəyir ki, onu həbs eləsinlər bir az yatsın, azadlığa çıxsın və sonra da ona xaricdən desinlər ki, "malades sabaka" və sığınacaq versinlər o da rədd olub getsin.

## Millət vəkili Çingiz Qənizadə: "Vidadi İsgəndərli, Orduxan Teymurxan kimilərin arxasında müəyyən qüvvələr var"



- Avropada oturub, Azərbaycana qarşı qarayaxma kampaniyası aparan qaragüruh dəstənin, heç şübhə etmirəm ki, arxasında müəyyən qüvvələr dayanır. Əvvəla, Avropada yaşamaq və orda fəaliyyət göstərmək bir o qədər asan deyil. Yəni Avropada kimsə kiməsə yardım etməsə, əl uzatmasa, uzağı 1-2 aydan sonra son dərəcədə ağır vəziyyətlə üzləşməli olar. Bu baxımdan da, demək olar ki, Vidadi İsgəndərli, Orduxan Teymurxan kimilərin arxasında müəyyən qüvvələr var ki, həmin qüvvələrin Azərbaycanın bugünkü hakimiyyətinə, dövlətinə və xalqına mənfi münasibət sərgiləyirlər. "Siyasi mühacir"lərə ayrılan maliyyə vəsaiti ancaq ölkəmizə qarşı şərböhtan kampaniyası aparmaq üçün ayrılır. Hesab edirəm ki, bu, acizliyin nümunəsidir. Həmişə qeyd etmişəm ki, mübarizə də kişi kimi olmalıdır, sivil olmalıdır. Yəni hansısa sahədə çatışmazlıqlar varsa, onu sivil yolla da deyə bilərlər və özlərinin yaratdıqları portallar və informasiya vasitələri ilə təbliğini də apara bilərlər. Amma söyüş söymək və xoşagəlməz fikirlər yaymaq yolverilməzdir. Bəli, Azərbaycana düşmən kəsilən, Azərbaycanı sevməyən dövlətlər və təşkilatlar var. Onlardan da biri Fransadır. Fransa prezidenti Emmanuel Makron Ermənistana səfəri zamanı geylərin tədbirində iştirak etməsi, orda qol açıb oynaması onun ermənilərə dəstəyinin nümunəsidir. Ermənistanın müxtəlif bölgələrinə, o cümlədən, işğal olunmuş Dağlıq Qarabağa Fransanın müəyyən senatorlarının səfəri, Fransa bələdiyyə başqanlarının Ermənistana tez-tez səfərləri, onlara maliyyə dəstəklərinin göstərməsi, işğal olmuş ərazimizdə yaradılan qondarma rejimin rəhbərinin Fransaya viza alıb, oraya gedərək görüşlər keçirməsi, onu göstərir ki, Fransanın Azərbaycana münasibəti mənfidir. Fransanın bəzi şəxslərə müstəqil dövlətin rəhbərliyi, dövlət və xalq haqqında qanuna zidd fəaliyyət göstərmələrinə, açıqlamalar yaymalarına şərait yaratması, həm də ermə- ni maraqlarına xidmətin təzahürüdür.

## "Müasir Müsavat" partiyasının sədri Hafiz Hacıyev: "Aslan İsmayılov ermənilərlə sıx əlaqəsi və qohumluğu olan insandır"



- Avropada oturub, şər-şəbədə ilə çıxış edən "siyasi mühacir"lər Azərbaycan dövlətinə xəyanət etmiş insanlardır. Avropadakı tör-töküntülərin Azərbaycandakı üzvlərindən olan A.İsmayılov ermənilərlə sıx əlaqəsi, qohumluğu olan insandır. Mən onu məhkəməyə verdim və məhkəmədə də uddum, buna şərti iş verdilər. Bu adam dövlətə, Azərbaycan xalqına xəyanət edə-edə gedirsə, onu cəzasız buraxmaq olmaz. O cümlədən, Vidadi İsgəndərli, Məhəmməd Mirzəli, Xədicə İsmayıl, Orduxan Teymurxan, Tural Sadıqlı və digərləri də ciddi şəkildə cəzalandılmalıdırlar. V.İsgəndərlinin açıqlamaları və hərəkətləri anormallıqdır. Ya bu adamın başı xarabdır, ya da dəlidir. Əslində, bu cür insanlarla öz dillərində danışmaq lazımdır. V.İsgəndərli Fransada oturub. Fransa ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biridir. Amma vasitəçilik prinsiplərinə zidd olan addımlar atır. Fransanın prezidenti Azərbaycana gəlmədi, getdi Yerevanda erməni qızları ilə "çaşka-lojka" oynadı. "Siyasi mühacir" deyilən Avropadakı xəstələrin hamısı eyni mənbədən idarə olunurlar. Fikir verin, Xədicə İsmayıla 500 min avro qrant ayırıblar. Niyə? Söz yox ki, bu pullar söyüş söymək, təhqirlər səsləndirmək üçün ayrılıb. Necə olur ki, o məxluq, hüquqşünas, gedir Gürcüstana orada ermənilərlə müxalifət arasında iş birliyi qurur və başlayırlar plan cızmağa. C.Həsənlinin qızı da ermənıyə ərə gedib. Bütün bunlar, onlara milyonlar gətirir. Onlar da qarşılığında bizim haqqımızda iyrənc sözlər və ifadə səsləndirilər. Bu baxımdan, demək olar ki, onlar pul qazanmaq üçün təkcə ermənilərə deyil, hər cür məkrli qüvvələrə işləməkdən çəkinmirlər.

**GÜLYANƏ**

# Vidadi İsgəndərlinin xatırlamaq istəmədikləri: Qızı zorlaması, satqınlıq, əyyaşlıq və...

*Şərin, böhtanın, yalanın miqyası və dövriliyi böyüdükcə təəccüb azalmalıdır. Məntiq bunu deyir, amma...*

***Radikal müxalifətin "Avropa çıxıntısı" hesab edilən antimilli mühacirlərin, xüsusilə Vidadi İsgəndərlinin təqdimatındakı yalan və böhtanlar təəccüb gücünü nəinki itirmir, hətta hər gün təəccübləndirməkdə davam edir. Adam dayanmadan necə yalanlar ifraz edə bilər, hətta bugünkü yalan dünənkini təkzib etsə belə, eyni şövqlə necə davam edə bilər? Bu şər makinası önündə heyrətlənməmək mümkünsüzdü, adamın həyasızlığı sərhəd tanımırmış.***

Siyasi gündəmə atasının qəbri üzərindən gəlməyi özünə rəva bilən adamdan bundan artığını gözləmək sadəlövhlük olardı. Bununla belə Vidadi İsgəndərlinin şəxsimə yönəlik absurd iddiaları ilə bağlı bəzi qeydlərimi diqqətinizə çatdırmaq ehtiyacı duydum. Deməli, adam indi də məni hədəf seçib. İddia edir ki, guya atasının qəbrinin təhqir olunmasında hansısa formada iştirakım olub, guya dayım uşaqları bu məsələyə görə polisə də çağrılıb. Adama məntiq dərsi keçmək həvəsində deyiləm, bunun Vidadi İsgəndərliyə təsir edəcəyini də zənn etmirəm. Bildirirəm ki, bəli, mənim dayım uşaqları var, onlar Göyçayda yaşayırlar. Hamının bildiyi bu həqiqət Vidadi İsgəndərlinin atasının qəbrini məhz onların təhqir etdiyi anlamına gəlirmi? Bu nə məntiqdi, bu nə sayıqlamadı?



**Emil Məmmədov**
**Sfera.az**

Başqa vaxt Azərbaycan hakimiyyətinə, eləcə də polisinə kin püskürürsən, Vidadi İsgəndərli...İddia edirsən ki, hakimiyyət atanın qəbrinin təhqir olunmasını araşdırmaqda maraqlı deyil. Doğrudan da iddia etdiyin kimi bu məsələnin obyektiv araşdırılmasına mane varsa və yenə iddia etdiyin kimi bu işi dayım uşaqları həyata keçiribsə, sənin olmayan məntiqinlə onlar nəinki polisə çağrılmamalıydı, əksinə ciddi cəhdlə qorunmalıydı.

Bu məntiqin gəldiyi nəticədir. Məntiq faktı doğurur, o faktı ki, həmişə olduğu kimi yenə yalan ifraz edirsən, yenə ənənəvi ampluandasan, yenə kin qusursan.

Bu sətirləri yazarkən bəzi nüansları xatırlayıram. Vidadi İsgəndərlinin hüquq mühafizə orqanlarından kənarlaşdırıldığı çox da uzaq olmayan keçmişi. O keçmişi ki, indi Vidadi İsgəndərli ciddi cəhdlə ört-basdır etməyə çalışır. O keçmişi ki, utanılacaq məqamlarla zəngindi. O zaman Vidadi İsgəndərli haqda mətbuatda və sosial şəbəkələrdə yayılan məlumatları izləyirdim. Bir dəfə facebook akauntunda onun bir qızı zorlaması ilə bağlı status gördüm. Daha sonra bununla bağlı indi üzərində geniş dayanmaq istəmədiyim bəzi təfərrüatlar da açıqlandı. Və Vidadi İsgəndərliyə antipatiyam beləcə başladı. Bu antipatiya məndə onun ifşa olunmasına xüsusi bir meyl yaratmışdı və beləcə, mən onu ifşa etməyə çalışdıqca o da öz növbəsində məni ləkələmək üçün şərböhtan kampaniyasına başladı. O məni daha nələrdə ittiham etmədi ki...

Gah dedi, keçmiş nəqliyyat naziri Ziya Məmmədova işləyirəm, gah hamını inandırmağa çalışdı ki, guya hüquq-mühafizə orqanları üçün çalışıram. Adam işlətməli olduğu başını bircə dəfə işlətmədi ki, Ziya Məmmədova, ya da digərinə muzdla işləyən şəxs ailəsilə birgə uzun illər kirayələrdə yaşamazdı.

Vidadi İsgəndərli, sənin yaşının o vaxtıdır ki, indi atana rəhmət qazandırmalısan. Daha kimdən xoşun gəlmirsə, kimə "ilişmək" istəyirsənsə onu hədəf götürüb "atamın qəbrini o təhqir edib" deyə gündə bir yalan uydurmamalısan. Avropalı ağalar maliyyənizi azaldıbsa, daha qrantlar əvvəlki intensivliklə verilmirsə, bunun günahkarı mən deyiləm. Buna görə heç rəhmətlik atanın ruhunu da narahat etməyə dəyməzdi...

Vidadi İsgəndərlinin üstündən illər keçəndən sonra xatırlamaq istəmədiyi bəzi şeyləri də xatırlayıram. Məsələn onu ki, Vidadi İsgəndərli 2003-cü ilin məlum mitinqləri zamanı tutulan gənclərə işgəncə verən ən qəddar müstəntiq kimi ad qazanmışdı. İndi isə Avropada oturub Azərbaycana demokratiya gətirəcəyindən dəm vurur. Başa düşən üçün ayıbdır, amma gərək baş ola...

Başqa məsələləri də xatırlatmaq olar İsmayıllıda müstəntiq olduğun dövrdə toyuq oğrusuna 9 il iş istəməyin, içib İsmayıllı meşələrində yatıb qalmağından tutmuş, böyük rüsvayçılıqlarla müşayiət olunmuş əyyaşlıqlarına qədər. Milliyyətcə qaqauz türkü olan qızı zorlamağın isə tərcümeyi-halının ən böyük ləkələrindəndir.

Unutma: Sən və orduxanlar hər zaman Azərbaycan xalqına yad olub. Çünki sənin kimi şərəf və ləyaqətini itirmişlər pul və sərvət üçün dövlətini, Vətənini satanlardır. Necə ki, Tural Sadıqlı və Məhəmməd Mirzəli 80 min evro üçün bir-birlərinə girib, bir-birlərinin valideyinlərini təhqir edirdi. Sən də, Orduxan da, Emin Millli və Emin Hüseyinli kimi Ölkənizi, Ana vətəninizi qrantlara satdınız...

Unutmayın ki, xalqımızın sizin kimi Vətən xainlərinin Azərbaycana gətirmək istədiyi "demokratiya"ya ehtiyacı yoxdur. Gedin, özünüzə başqa bir məşğuliyyət tapın.

## Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi açıqlanıb

Bu ilin yanvar-oktyabr aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 43 milyon 375 min ton, yük dövriyyəsi isə 9 milyard 490,1 milyon ton-kilometr olub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, yüklərin 27 milyon 326,7 min tonu və ya 63 faizi avtomobil nəqliyyatı, 10 milyon 361 min tonu və ya 23,9 faizi dəmir yolu nəqliyyatı, 5 milyon 687,7 min tonu və ya 13,1 faizi dəniz nəqliyyatı ilə daşınıb. Dəhliz vasitəsilə daşınmış yüklərin 17,9 faizini və ya 7 milyon 766 min tonunu tranzit yüklər təşkil edib.

# Xədicə İsmayılın 500 min avroluq qrantı onun başını ağrıdacaq?

*Yaxud pulların xərclənəcəyi qaranlıq məqsədlər bəlli olub*

***Uzun illərdir ki, "millət dərdinə yananlar" fəsiləsindən olan, istər ölkə daxilində, istərsə də Avropada qrant əldə etmək üçün şərəflərini, ləyaqətlərini pula-paraya satanlar barədə müxtəlif, eləcə də, çoxsaylı faktlar öz təsdiqini tapmaqdadır. Elə də uzağa getməyərək, Avropada sosial şəbəkə üzərindən "siyasi mübarizə" aparanlar arasındakı qrant davasını xatırlaya bilərik. Bir-birlərini ən sərt ifadələrlə təhqir edən bu tiplərin əslində, bir-birlərindən heç bir fərqləri yoxdur. Çünki bu fərdləri, ümumiyyətlə, dövlət maraqlarından tutmuş, insan haqlarına qədər heç nə maraqlandırmayıb, bundan sonra da belə olacağı şübhəsizdir. Onların maraqları yalnız və yalnız Azərbaycan dövlətinin maraqları əleyhinə qrant əldə edib, bunu həzm-rabeələrindən keçirmək üzərində qurulub.***

Əbəs deyil ki, Əlikram Hümbətov kimi xainlərlə, separatçılarla belə, eyni ağızdan Azərbaycan dövləti və hakimiyyəti əleyhinə dəm vuranlar "şərəfsiz" ifadəsini təhqir kimi qəbul etmədiklərini bəyan edirlər. Məhz bu həqiqətin özü onların nə qədər təhlükəli və nə qədər idbar ünsürlər olduğunu hər dəfə isbat etməkdədir.



## Dini qruplar, seksual azlıqlar...

Yeri gəlmişkən, qrant savaşı hələ də davam edir və bu dəfə həmin məsələdə özünü "araşdırmaçı-jurnalist", yaxud "hüquq müdafiəçisi" kimi təqdim edən Xədicə İsmayılın adı hallanır. Mətbuata sızan dəqiq informasiyaya görə, X.İsmayıl, bu yaxınlarda Qərb təşkilatlarından növbəti məkrli layihənin icrası üçün 500 min avro qrant alıb. Maraqlıdır ki, bu məsələni elə beynəlxalq donor təşkilatlarından biri, nəninki inkar edib, hətta təsdiqləyib. Maraqlı məqam isə budur ki, X.İsmayıl bu məbləği topdan deyil, pərakəndə şəkildə əldə edib. Çünki ona bildirilib ki, vəsait topdan göndərilərsə, dərhal diqqətləri cəlb edə bilər və s.

Başqa tərəfdən, X.İsmayıl hazırda vergi məsələlərinə görə məhkəməyə verilib və bu səbəbdən, onun bank hesablarının bağlı olduğu bildirilir. Ona görə də, qrant vəsaitləri onun yaxın tanışının hesabına köçürülür və pullar da oradan nağdlaşdırılır. Bu qrantların məqsədləri isə artıq müəyyənləşdirilib:

1. Milli, dini qruplar, seksual azlıqlar, gənclər, habelə tələbələr arasında sosioloji araşdırmalar aparmaq.

2. Bu qruplarda təşkilatlanma işlərinin aparılması üçün maddi vəsaitlərdən istifadə edilmək.

3. Uzunmüddətli planda ölkədə müxtəlif sosial qruplar arasından - dini icmalarda, seksual azlıqlar qruplarında narazıları aşkarlayıb, səfərbər etmək.

Bu məqamda, X.İsmayılın qrant məsələsi ildırım sürəti ilə müxalif düşərgə daxilində, eləcə də, Avropadakı qruplar arasında çaxnaşma yaradıb. Daha dəqiq desək, X.İsmayılın yarım milyon avroluq qrantın bölüşdürülməsini təkbaşına həyata keçirməsi qarşı tərəfləri qıcıqlandırıb.

## Fakt budur ki, xarici dairələr bu dəfə X.İsmayılın üzərində dayanmaqla, digərlərinə etimad göstərmədiklərini sərgiləmiş olublar

Yəni o, həmin pulları özünə yaxın olan fəallara ötürür. Nəticədə, bu amil bəzi müxalifət liderləri arasında, eləcə də, avropalı "siyasi mühacirlər"də narazılıq yaradıb. Onlar qrantın müxalifət partiyalarına və "siyasi mühacirlər"ə deyil, X.İsmayıla ötürülməsindən narazılıq edirlər və bu barədə Qərb səfirliklərinə şikayətlənirlər. Ancaq fakt budur ki, xarici dairələr bu dəfə X.İsmayılın üzərində dayanmaqla, digərlərinə etimad göstərmədiklərini sərgiləmiş olublar.

Bu məsələ isə, daha əvvəllər yaşanan qrant savaşları kimi, bu "cameəni" kəskin qarşıdurmalara və ziddiyyətlərə sürükləyəcək. Necə ki, ötən il X.İsmayıl ilə "Siyasi Məhbusların Müdafiə Mərkəzi" arasında yaşananlar kimi. Xatırladaq ki, həmin vaxtlarda X.İsmayılla yanaşı, adıçəkilən qurum da Qərbə "siyasi məhbus" siyahıları göndərirdilər. Xədicə isə qrant pullarının, tək sahibi olmaq üçün, həm müxalifət partiyalarının rəhbərləri, həm də "Siyasi Məhbusların Müdafiə Mərkəzi" barədə donor təşkilatlara donoslar yazmışdı. Əbəs deyil ki, ötən il o, 350 min avroluq qrantı əldə edərək, onun bir hissəsini "NİDA"nın kef məclislərinə, digər hissəsini isə başqa məqsədlər üçün istifadə edib. O cümlədən, bu pullar vergidən də gizlədilib. Hər halda, bu dəfə onun 500 min avroluq qrant alması məsələsi daha böyük səs-küyə və savaşlara rəvac verməli olacaq.

**Rövşən RƏSULOV**



RƏFİQƏ

# Erməniləşən xəyanətkar Aslan İsmayılov

***Adətən, zəif və cılız canlılar böyük rəqibləri ilə geniş məkanda savaşmaqdan çəkinər. Yalnız özlərinin sığa biləcəyi dar deşiklərdə gizlənib, rəqiblərini də ora çəkməyə çalışırlar. Necə ki, siçovullar girdikləri yuvalarında əli keçə bilməyən pişiklərə meydan oxuyurlar. Görünür, Aslan İsmayılov da öz adı ilə elə zənn edir ki, "aslan"dır, amma anlamır ki, heç həşarat da deyil.***

Zaman-zaman erməni yarlığı ilə gəzən və başdan-ayağa saxtakar olduğu halda həftə səkkiz, mən doqquz, başlayıb yenə də dövlətə və xalqa böhtan yağdırmağa. Çünki o, ermənidən betər erməni olmaqla yanaşı, milli, dini mənsubiyyəti onun damarında axan qanı da belə erməni qanıyla eynidir. Əgər belə olmasaydı, Kremlə nökərçilik edən "vəkil" hələ Sumqayıt hadisələri dövründə azərbaycanlı gəncləri həbsə atdırmazdı. Bu gün bu xəyanətkar, erməniləşmiş "vəkil" ermənilərlə bir yerdədir. Özü də təkcə bu gün də yox, 1988-ci ildə, məşhur Sumqayıt hadisəsində də ermənilərin yanında dayanaraq, Azərbaycan övladları barədə hökm çıxarırdı.

Və yaxud da erməniləşən "vəkil" Aslan İsmayılov artıq bir neçə gündür ki, sosial şəbəkələrdə "psixoloq" Nərmin Şahmarzadənin qəhrəman şəhidimiz Mübariz İbahimovla bağlı yazdığı məlum və ictimaiyyətdə hiddət doğurmuş statusuna dəstək göstərib. "Facebook" sosial şəbəkəsində N.Şahmarzadənin Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu "qatil" və "cani" adlandırmasına qarşı çıxan azərbaycanlıları "vətənşivən" adlandıran A.İsmayılov, bununla sübuta yetirib ki, xəyanətkar olmaq üçün heç də yaş fərqli rol oynamır.

Elə bu faktın özü A.İsmayılovun əsl kimliyindən xəbər verir. O, ən azı mənəviyyat baxımından erməni xislətlidir. Erməniləri müdafiə edə-edə, onların yanında dayana-dayana ermənilər kimi özü üzərində yazıqlıq, haqsızlığa məruz qalmışlıq imici yarada-yarada siyasi və maddi dividend toplayır, mal-dövlət yığır.

Ancaq artıq belə bir xəyanətkarın xalq və dövlət maraqlarımıza qarşı törətdikləri çoxsaylı xəyanətlərinin cavabının verilməsi zamanı çatıb. Bu baxımdan, A.İsmayılov əlahəzrət qanun qarşısında cavab verəcəyi gün elə də uzaqda deyil.

# Ermənistan dini münaqişə astanasında

*"Yeni Ermənistana yeni patriarx" təşəbbüsü ilə II Qareginin istefası tələb olunur*

***Ermənistanda tolerantlıq mühitinin olmaması, eləcə də, etniklərin diskriminasiyası ilə yanaşı, dini dözümsüzlük məsələsi də ciddi və həll olunmamış problem olaraq qalmaqdadır. Belə ki, bu istiqamətdəki vəziyyət o həddə qədər inkişaf edib ki, artıq Ermənistan kilsəsində də kəskin parçalanma getməyə başlayıb. Uzun illərdir, Nikol Paşinyan hakimiyyəti də daxil olmaqla, bütün hakimiyyətlər dövründə xalqın malını talayan, erməni dini fəlsəfələri ilə baş aldadan "Müqəddəs Eçmiədzin", artıq narazı kütlələrin hədəfinə çevrilib.***

## II Qareginin qardaşı və kürəkəni təşəbbüs qrupunu kilsənin qarşısında döyüblər

Erməni ictimai rəyi bu amilə qarşı dözməyəcəklərini, "Müqəddəs Eçmiədzin" kilsəsində islahatların aparılmasına qədər tələblər irəli sürəcəklərini bəyan edirlər. Belə ki, Ermənistanın "Hraparak" qəzetinin yazdığına görə, "Yeni Ermənistana yeni patriarx" təşəbbüsünə qarşı sərt müqavimət göstərilib. Belə ki, Vodkeat kəndinin icma rəhbəri, bütün ermənilərin katolikosu II Qareginin qardaşı təşəbbüs qrupunun qarşısının alınması üçün ən radikal üslublara əl atıb.



Erməni nəşri xəbər verir ki, bir sıra məlumatlara görə, onlar "Yeni Ermənistana yeni patriarx" təşəbbüs qrupunun tərəfdarlarını "Müqəddəs Eçmiədzin" kilsəsinin qarşısında gözləyiblər. Onlara kənd icmasının rəhbəri, II Qareginin qardaşı ilə yanaşı və onun kürəkəni Gevork Nersisyan da rəhbərlik edib. SİTAT: "Ötən həftənin şənbə günü bütün ermənilərin ali patriarxı və katolikosu II Qareginin istefasını tələb edən "Yeni Ermənistana yeni patriarx" təşəbbüs qrupunun iştirakçıları növbəti aksiyalarını keçirdikdən sonra, "Müqəddəs Eçmiədzin" kilsəsinin ərazisinə daxil olmağa cəhd göstəriblər. Onları burada yumurta, peyin və daşlarla silahlanmış kütlə gözləyirdi. Nəticədə, aksiya iştirakçılarından bir neçəsi kəllə-beyin xəsarətləri alıblar və polisə müraciət ediblər".

## Təşəbbüs qrupuna "müqəddəs ata" Koryun rəhbərlik edir

Yeri gəlmişkən, bu məsələnin maraqdoğurucu tərəflərindən biri də budur ki, katolikosun istefasını da, məhz erməni kilsəsinin nümayəndələri tələb edirlər. Daha dəqiq desək, adıçəkilən təşəbbüs qrupuna "müqəddəs ata" Koryun rəhbərlik edib. Qarşıdurmada onun avtomobilinin şüşələri sındırılıb və ona ciddi ziyan vurulub. Maraqlıdır ki, polis şikayətlərə baxıldığını desə də, hadisə ilə əlaqədar cinayət işi açılmayıb.

Bu arada, onu da xatırlatmaq olar ki, Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan, erməni ənənələrinə uyğun olaraq, kilsə nikahına girməyib və övladları da xaç suyuna salınmayıb. Onun ateist olduğu bildirilir və hətta seksual azlıqları müdafiə edən proqramları reallaşdırılacağı barədə fikirlər ictimaiyyət arasında müzakirə obyektinə çevrilib. Kilsə isə buna susur və "Yeni Ermənistana yeni patriarx" tələbinin də bu kimi məsələlərdən qaynaqlandığı qeyd olunur. Daha dəqiq desək, son vaxtlara qədər qeyri-rəsmi olsa belə, Ermənistanın siyasi rəhbərliyinin tərkib hissəsinə çevrilən kilsənin indi bu məsələdən kənarlaşdırılmasına baxmayaraq, Qareginin Paşinyanın bənzər proqramlarına qarşı iradlar bildirməməsi qatı dindarları kəskin şəkildə qıcıqlandırmağa başlayıb. Bu, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, artıq Ermənistan digər burulğanlarla yanaşı, həm də daxilində dini münaqişə yaşamaq astanasındadır.

**Rövşən NURƏDDİNOĞLU**

# Avropa İnsan Hüquqları Məhkəməsinin beynəlxalq hüquqi statusu

***XX əsrin II yarısında, əsasən də, II Dünya müharibəsindən sonra, demokratik rejimli bir çox ölkələrdə, xüsusilə də, Avropa dövlətlərində insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi sahəsində bir sıra mühüm addımlar atıldı. ilk növbədə, müharibənin və faşizmin dəhşətlərini və ağır nəticələrini görən avropalılar asanlıqla anladılar ki, insan hüquqlarının müdafiəsi sahəsində yalnız dövlətdaxili mexanizmlər yetərli deyildir.***

Zaur Əliyev yazır: "İnsan hüquqlarının universal səviyyədə müdafiəsi ideyası, ilk dəfə olaraq, BMT Nizamnaməsində öz əksini tapmışdır. Nizamnamədə "irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyatinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və həvəsləndirilməsi" BMT-nin əsas məqsədlərindən biri kimi bəyan edilir (1-ci maddə). Nizamnamənin 55-ci maddəsinə əsasən, dövlətlər irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verirlər". Hüseynovun fikrincə, təşkilatın bütün üzvləri öz üzərlərinə öhdəlik götürürlər ki, 55-ci maddədə göstərilmiş məqsədlərə nail olmaq üçün təşkilatla əməkdaşlıqda birgə və müstəqil hərəkət etsinlər (56-cı maddə).

Lakin qeyd etmək lazımdır ki, BMT Nizamnaməsində insan hüquqları və əsas azadlıqları sadalanmır. Bir növ bu boşluğu doldurmaq üçün 10 dekabr 1948-ci ildə BMT Baş Assambleyasının 217 (III) saylı qətnaməsi ilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul edildi. 30 maddədən ibarət olan bu sənəddə bir sıra vətəndaş və siyasi hüquqlar, həmçinin iqtisadi, sosial və mədəni hüquqlar təsbit olunmuşdur.

D.Qomyen, D.Hallis və L.Zvaak yazırlır: "Artıq qeyd etdiyimiz kimi, II Dünya müharibəsindən çıxan və müharibənin dəhşətlərini görən Qərbi Avropa dövlətləri öz gələcəklərini iqtisadi və siyasi inteqrasiyada görürdülər. Təsadüfi deyildir ki, müharibədən sonra müasir həyatın müxtəlif sahələrində əməkdaşlığı inkişaf etdirməyə yönələn beynəlxalq təşkilatların regional sistemi ilk əvvəl Qərbi Avropada yaranmışdır.

H.Rəcəbli və V.İbayev yazırlar: "Avropa regionunda ən qocaman beynəlxalq təşkilat AŞ-dır. Bəzən bu təşkilatın yaranmasını İngiltərə hərbi kabinetinin başçısı Uinston Çerçillin 1942-ci ilin oktyabr ayında verdiyi bəyanatla əlaqələndirirlər. Bəyanatda deyilirdi: "Mən millətlər arasında sədləri əhəmiyyətli dərəcədə aradan qaldıran, maneəsiz hərəkət üçün imkan yaradacaq Avropa Birləşmiş Ştatlarının yaradılmasını gözləyirəm". O göstərirdi ki, Avropa iqtisadiyyatına vahid bir tam halında baxılmalıdır. U.Çerçill tərəfindən irəli sürülmüş bu ideyalar Avropada geniş əks-səda doğurdu. 1949-cu ilin yanvarında Avropanın birləşdirilməsi üzrə Beynəlxalq Komitənin iclasında "Avropa Şurası" adlı regional təşkilatın yaradılması qərara alındı. 1949-cu il may ayının 5-də Belçika, Danimarka, Fransa, İrlandiya, İtaliya, Lüksemburq, Niderland, Norveç, İsveç və Böyük Britaniyanın xarici işlər nazirləri AŞ-nın Nizamnaməsini imzaladılar. Nizamnamə 3 avqust 1949-cu ildə qüvvəyə minmişdir. Nizamnaməyə əsasən, təşkilatın əsas məqsədlərindən biri insan hüquqlarının müdafiəsidir.

12 iyul 1949-cu ildə Nazirlər Komitəsinə AİHK-nin və Avropa Məhkəməsinin Statusunun layihələri təqdim edildi. Lakin buna baxmayaraq, komitənin 9 avqust 1949-cu il tarixdə keçirilən birinci sessiyasında yeddi səs lehinə, dörd əleyhinə və bir səs bitərəf olmaqla "İnsan hüquqlarının və əsas azadlıqların müəyyən edilməsi, müdafiəsi və inkişafı" adlı bəndin şuranın Məşvərətçi Assambleyasının birinci yığıncağının gündəliyindən çıxarılması qərara alındı. Fransa, Norveç və İsveçdən olan nümayəndələr gündəliyə insan hüquqları ilə bağlı bəndin daxil edilməsinin əleyhinə çıxırdılar və bunu onunla əsaslandırırdılar ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulu zamanı bu məsələ BMT-də ətraflı müzakirə olunub və bunun yenidən gündəmə qaytarılmasına ehtiyac yoxdur. Lakin Nazirlər Komitəsinin qərarına baxmayaraq, Məşvərətçi Assambleyanın bir çox nümayəndələri Avropa üçün insan hüquqlarına dair Konvensiyanın hazırlanmasına böyük maraq göstərirdilər. Bəzi nümayəndələr Avropada insan hüquqları sahəsində görülən işin, bu sahədə BMT çərçivəsində görülən işi təkrarlayacağı haqqında fikirləri qətiyyətlə inkar edirdilər. Onlar fikirlərini belə əsaslandırırdılar: "İnsan hüquqları ilə bağlı məsələnin BMT-də uzun müddət müzakirə olunmasına baxmayaraq, bu sahədə deqiq bir mexanizm hələ də hazırlanmayıb. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin zəif cəhəti onun hüquqi baxımdan qeyri-məcburi olmasıdır. İnsan hüquqları ilə bağlı məsələnin Avropa müstəvisində müzakirəsi isə, BMT-dən fərqli olaraq, hüquqi cəhətdən məcburi olan bir sənədin hazırlanmasına imkan verir". 12 avqust 1949-cu ildə Nazirlər Komitəsi insan hüquqları ilə bağlı məsələnin Məşvərətçi assambleyanın gündəliyinə daxil edilməsinə razılıq verdi. 13 avqust 1949-cu ildə assambleyanın müzakirəsinə aşağıdakı bəndin daxil edilməsi təklif edildi: "Assambleya Şuranın üzvlərinə Nizamnamənin I maddəsində təsbit edilmiş məqsədlərə nail olmaq üçün tövsiyə edir ki, əsas insan hüquq və azadlıqlarına hörmət edilməsinin təmini üçün kollektiv məsuliyyət prinsipini tanısınlar və bunun üçün müvafiq Konvensiya qəbul edib öz üzərlərinə aşağıdakı öhdəlikləri götürsünlər:

a) Konvensiyanın imzalanmasına qədər müvafiq dövlətlərdə mövcud olan və konstitusiya və digər normativ-hüquqi aktlarla təmin edilən əsas insan hüquq və azadlıqlarının toxunulmazlığına təminat verilməsi;

b) Konvensiyanın müddəalarına əməl edilməsini təmin etmək üçün Avropa İnsan Hüquqları Komissiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin yaradılması". Beləliklə, uzun müzakirələrdən sonra AİHK-nin Məşvərətçi Assambleyanın hüquq komitəsinə göndərilməsi qərara alındı.

Sonradan, həmin gün (19 avqust, 1949-cu il) "Avropa İnsan Hüquqları Konvensiyasının pozitiv hüququn tərkib hissəsinə çevrildiyi gün" kimi dəyərləndirildi. 27 avqust 1949-cu ildə hüquq komitəsi yekdilliklə müəyyən etdi ki, "baxmayaraq ki, hər bir dövlətin öz ərazi hüdudlarında insan hüquqlarının müdafiəsi ilə bağlı müvafiq normalar müəyyən etmək hüququ vardır, lakin bu hüquqların kollektiv təminatı imkan verir ki, bu normalar və onların tətbiqi sivil millətlər tərəfindən tanınmış hüququn ümumi prinsiplərinə müvafiq olsun". Hüquq komitəsi tərəfindən təklif edilən Konvensiya layihəsində on iki əsas insan hüquq və azadlıqları sadalanırdı, həmçinin, insan hüquqları üzrə Avropa Komissiyasının və Məhkəməsinin yaradılması, ayrı-ayrı şəxslərin və dövlətlərin şikayət ərizəsi ilə komissiyaya müraciət etmək hüququ və komissiyanın və ayrı-ayrı dövlətlərin işi məhkəməyə verə bilməsi nəzərdə tutulurdu. Lakin komissiyanın və məhkəmənin yaradılması təklifi hamı tərəfindən dəstəklənmədi. 6 sentyabr 1949-cu ildə Fransa və Böyük Britaniyadan olan nümayəndələr hüquq komitəsinin, məhkəmənin yaradılması haqqında tövsiyəsini rədd etmək təklifi ilə çıxış etdilər. Onlar, əsasən, ayrı-ayrı şəxslərə müvafiq dövlətə qarşı şikayət ərizəsi ilə çıxış etmək hüququnun verilməsinin əleyhinə çıxırdılar və bunun dövlətlərin suverenliyinin alçaldılmasına gətirib çıxaracağını bildirirdilər. Lakin bununla bərabər, bir çox nümayəndələr, məhkəmənin yaradılmasının vacibliyini vurğulayırdılar. İki günlük gərgin müzakirələrdən sonra, 8 sentyabr 1949-cu ildə Fransa və Böyük Britaniyadan olan nümayəndələr tərəfindən irəli sürülən, AİHM-in yaradılmasını istisna edən Konvensiyaya düzəliş rədd edildi. Elə həmin gün Məşvərətçi Assambleya 64 səs lehinə, 1 əleyhinə, 21 səs bitərəf olmaqla hüquq komitəsinin məruzəsini bəyəndi və ona bir sıra düzəlişlər edildi. Məhkəmənin və komissiyanın yaradılması, həmçinin, ayrı-ayrı şəxslərin şikayət ərizəsi ilə çıxış etmək hüququnun möhkəmləndirilməsi tövsiyə olundu. Sonra assambleya tərəfindən təsdiq edilmiş Konvensiya layihəsi Nazirlər Komitəsinə verildi. 1 aprel 1950-ci ildə Nazirlər Komitəsi, üzv-dövlətlərin hökumətlərinin yüksək vəzifəli şəxslərinin konfransının çağırılmasını qərara aldı. Konfrans 8-17 iyun, 1950-ci il tarixində keçirildi. Məhkəmənin yaradılması ilə bağlı konfrans iştirakçılarının məruzəsində deyilirdi ki, yeddi dövlət (Böyük Britaniya, Niderland, Türkiyə, Yunanıstan, Danimarka, Norveç və İsveç) onun əleyhinə, dörd dövlət isə (Belçika, İrlandiya, İtaliya və Fransa) lehinə çıxış edirlər. İsveç fakultativ məhkəmənin yaradılması ideyası ilə çıxış etdi, onun bu kompromis təklifini səkkiz dövlət dəstəklədi, əleyhinə isə iki dövlət çıxdı.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Doqquz dövlət komissiyaya fərdi şikayət hüququnu dəstəklədilər, üç dövlət isə bu barədə öz xüsusi mövqeyini bildirdi.

Konvensiyada əsas insan hüquq və azadlıqlarının siyahısı haqqında məsələ razılaşdırıldı, lakin məhkəmənin yaradılması və fərdi şikayət hüququ ətrafında mübahisələr davam edirdi. Bu məqamda, Konvensiyanın layihəsi Nazirlər Komitəsinə qaytarıldı. 1950-ci ilin avqustunda Nazirlər Komitəsi həm məhkəmənin yurisdiksiyasının, həm də fərdi şikayət hüququnun fakultativ olmasını qərara aldı.

Beləliklə, 1950-ci il noyabrın 4-də, Romada, AŞ üzvləri tərəfindən "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Konvensiya qəbul olundu və 1953-cü il sentyabrın 3-də AŞ üzvü olan 8 dövlət (Danimarka, İrlandiya, İslandiya, Lüksemburq, Norveç, Böyük Britaniya, Almaniya və İsveç) tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə mindi.

V.A.Kartaşkin göstərir ki, Konvensiyanın preambulasında qeyd olunduğu kimi, onun iştirakçıları öz qarşılarına, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində sadalanan "bəzi hüquqların" həyata keçirilməsində "ilkin addımlar" atmağı məqsəd qoymuşlar. Həqiqətən də, Konvensiyada Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit olunmuş əsas hüquq və azadlıqlardan yalnız bəziləri öz əksini tapmışdır. Lakin Konvensiyanın ən üstün cəhətlərindən biri ondan ibarətdir ki, o, yeni sənədlərlə tamamlanmaqla daim inkişafdadır. Konvensiyaya dair əlavə Protokollar Avropa hüquq sisteminə, demək olar ki, əksər vətəndaş və siyasi hüquqları daxil etmişdir. Lakin Avropa Konvensiyasını dəyərləndirərkən təkcə orada müəyyən edilmiş hüquq və azadlıqlar deyil, həm də onların təminat mexanizmi nəzərə alınmalıdır. Bu barədə fransız alimi K.Vasak yazır: "Konvensiyanın dəyəri, orada sadalanan hüquq və azadlıqlarda deyil, onun mexanizmindədir. Bəşər tarixində, ilk dəfədir ki, dövlətdənkənar beynəlxatq mexanizm fəaliyyət göstərir və bu mexanizm bütün bəşəriyyətin ümumi dəyərlərini əks etdirir". Digər alimlərin fikrincə də, "bu mexanizm unikal və həyati olmaqla, daim inkişafdadır".

Avropa Məhkəməsinin fəaliyyəti, məhz bu Konvensiyaya əsaslanır. Konvensiya məhkəmə üçün bir növ "əsas qanundur". AŞ çərçivəsində qəbul edilmiş bir çox Konvensiyalar içərisində yalnız AİHK məhkəmə müdafiəsi ilə təminatlandırılmış və məhz bu səbəbdən, bu Konvensiyanı insan hüquqlarına dair sənədlər içərisində ən effektiv sənəd kimi dəyərləndirmək olar. Avropa Konvensiyasını AŞ-nin ən mühüm nailiyyəti adlandırmaq olar. AŞ-nin rəsmi dilləri ingilis və fransız dilləri olduğu üçün Konvensiya bu iki dildə qəbul olunmuşdur və 59-cu maddəyə əsasən, hər iki mətni bərabər autentikdir.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

# Səs

Son səhifə 19 dekabr


## Çexiyada müharibə dövründən qalma xəzinə tapılıb



Çexiyanın Pardubitse diyarındakı Kraliki qəsəbəsində yaşayan bir fermer qəsəbənin yaxınlığındakı çəmənlikdə dəri kisəyə yığılıb yerin səthindən bir qədər aşağıda qazılıb gizlədilmiş 6 ədəd qızıl sikkə aşkar edib. Osmanlı İmperiyasında, Avstriya-Macarıstan, Polşa və Niderlandda zərb edilmiş bu sikkələrin 30 illik müharibə dövründə gizlədilməsi ehtimal edilir.

AZƏRTAC xəbər verir ki, bu gün Pardubitsedə keçirilən mətbuat konfransında həmin tapıntı barədə rəsmi məlumat verilib. Alimlərin fikrincə, bu pullar bir muzdlu qatilə ödənilmiş haqq və ya qarətçinin əldə etdiyi qənimət ola bilər. Çexiya qanunlarına görə, tapılmış xəzinənin dəyərinin 10 faizi onu tapan şəxsə ödənilir. İndi fermer bu tapıntının qiymətləndirilməsini gözləyir.

## Bətnindən nəhəng törəmə xaric edilən qadın ana oldu



Hamiləliyin qorunması və dölün sonrakı inkişafını təmin etmək məqsədilə Respublika Müalicəvi Diaqnostika Mərkəzinin (RMDM) mama-ginekoloqu Aleksandr Barsukov tərəfindən icra olunmuş miomektomiya əməliyyatı uğurla başa çatıb. RMDM-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, riskli və unikal ginekoloji əməliyyat nəticəsində dölə mane olmadan bətndən çəkisi 3 kq-a yaxın olan mioma xaric edilib və qadın kafi vəziyyətdə evə yazılıb. Belə ki, hamiləliyin 16-17-ci həftəsində olan 31 yaşlı qadın qarın nahiyəsində şiddətli ağrılarla Respublika Müalicəvi Diaqnostika Mərkəzinə müraciət edib. İlk hamiləliyi olan qadının bətnində USM müayinəsi zamanı nadir rast gəlinən uşaqlığın bir neçə müxtəlif ölçülü mioması aşkar edilib.

Əməliyyatdan sonrakı dövr fəsadsız keçib. İnkişaf etmiş hamiləliyin 38-ci həftəsində qeysəriyyə kəsiyi əməliyyatı üsulu ilə doğuş həyata keçirilib və çəkisi 3.850 qram olan sağlam qız uşağı dünyaya gəlib. Həmçinin ananın bətnindən çəkisi 2 kq-dan artıq mioma xaric edilib.

## Toyuq yumurtası böyüklüyündə sarı almaz...

Kanadanın "Dayavik" yatağında ölçüsü toyuq yumurtası böyüklüyündə olan sarı almaz tapılıb. "Dominion Diamond Mines" kompaniyasının saytında yer alan məlumata görə, 552 karatlıq almaz indiyədək Şimali Amerikada tapılan ən böyük qiymətli daşdır. Zərgərlik keyfiyyətlərinə malik "Dayavik" ölçüsünə görə, XXI əsrdə tapılan almazlar sırasında yeddinci yeri tutur və tarixdə ən böyük qiymətli daşların top 30-luğuna daxil olub. Dünya rekordu isə 3106 karatlıq "Kullian" almazına (Cənubi Afrika Respublikası) məxsusdur.

Alimlər artıq "Dayavik" almazının strukturu ilə maraqlanırlar. Geoloqlar tapıntını tədqiq etdikdən sonra, o, hissələrə bölünərək cilalanacaq və bundan sonra satışa çıxarılacaq.

## ELAN

ADPU-nun Fizika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Quliyeva Rəhiməxanım İlqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə 1806/BR qrup tələbəsi İskəndərova Fatimə Rauf qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Fiziki tərbiyə və ÇH ixtisası üzrə III kurs tələbəsi Hüseynov Anar Elçin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə III kurs tələbəsi Aydın Melike Ademin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Fərid Qayıbov: Gimnastika Azərbaycanda idmanın inkişafında böyük rol oynayır




2018-ci il mənim üçün çətin və maraqlı oldu. Ötən ilin sonunda Avropa Gimnastika İttifaqına (UEG) prezident seçildim. Bu il həmin qurumun rəhbəri kimi fəaliyyətimin ilk ili idi. Bu sözləri dekabrın 18-də "İlin qalibləri-2018" müsabiqəsində "İlin idman xadimi" seçilmiş Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov jurnalistlərə müsahibəsində deyib.

F.Qayıbov qeyd edib: "2018-ci il Avropa Gimnastika İttifaqı üçün uğurlu olub. Dünya və Avropa çempionatları ilə yanaşı, qitənin idman qurumlarının dəvəti ilə müxtəlif tədbirlərdə iştirak etdim. Avropa Gimnastika İttifaqının iclasları oldu. Bu iclaslarda qurumun gələcək siyasəti və iş planını müzakirə etdik. Artıq müəyyən nəticələr də var. Qərarlarımız özünü doğrultdu. Bəzi qərarların nəticəsini bu il görə bilirik. Digərlərinin nəticəsini isə mütləq görəcəyik. Məhz bu gün Avropa Gimnastika İttifaqının yeni veb-səhifəsi istifadəyə verilib".

On beş il Azərbaycan Gimnastika Federasiyasında (AGF) çalışmış qitənin ali gimnastika qurumunun rəhbəri milli federasiyanın böyük nailiyyətlər qazandığını vurğulayaraq deyib: "2017-ci ilin sonunda AGF Beynəlxalq Gimnastika Federasiyası tərəfindən ilin ən yaxşı federasiyası seçildi. Bu görülən işlərin ən yaxşı göstəricisidir. İdmançılarımız da yüksək nailiyyətlər əldə ediblər. Bu il Mixail Malkin Bakıda keçirilən batut üzrə Avropa çempionatında qızıl medal qazandı. Bədii gimnastlarımız da Avropa çempionatında medallar əldə ediblər. Azərbaycanda gimnastika idmanın inkişafında böyük rol oynayır. Hər kəs bilir ki, idman gimnastikadan başlayır".

F.Qayıbov bildirib ki, gələn il Bakıda gimnastika üzrə daha çox beynəlxalq yarışlar keçiriləcək. 2018-ci ildə ölkəmizdə gimnastika üzrə altı irimiqyaslı yarış keçirilib. Üç dünya kuboku, Avropa çempionatı və müxtəlif beynəlxalq yarışlar təşkil edilib. 2019-cu ildə isə Milli Gimnastika Arenasında daha çox yarış olacaq. Gələn il Olimpiadaya lisenziya xalları verən üç dünya kuboku keçiriləcək. Bundan başqa, Bakıda bədii gimnastika və aerobika üzrə iki Avropa çempionatı və bədii gimnastika üzrə dünya çempionatı təşkil ediləcək. Azərbaycanda keçirilən yarışlara gələn ölkələrin coğrafiyası da artır. Builki bir dünya kubokuna 20-25 ölkə gəlmişdisə, artıq sifariş formalarından bəlli olur ki, gələn il 48 ölkə gələcək. İdmançılarımıza 2019-cu ildə yüksək nailiyyətlər arzulayıram.

## Lionel Messiyə "Qızıl buts" mükafatı təqdim olunub




Ötən mövsüm La Liqada 34 qol vuraraq bombardir olan Lionel Messiyə "Qızıl buts" mükafatı təqdim olunub.Qol.az-ın "Marca" nəşrinə istinadən yaydığı xəbərə görə, argentinalı futbolçu 5-ci dəfə bu mükafata layiq görülüb və bu göstərici üzrə yeni rekord müəyyənləşdirib. O, 2010, 2012, 2013 və 2017-ci illərdə də Avropa ölkələrinin çempionatlarında ən yaxşı bombardir olub. Qeyd edək ki, "Qızıl buts" reytinqində oyunçunun vurduğu qolların cəmi çempionatın müvafiq əmsalına vurulur. "Böyük 5-lik" çempionatlarında hər qol 2 xalla qiymətləndirilir.

## "Mançester Yunayted" Mourinyoya 27 milyon avro təzminat ödəyəcək!



"Mançester Yunayted"in istefaya göndərdiyi Joze Mourinyoya ödəyəcəyi təzminatın məbləği müəyyənləşib. Qol.az-ın Britaniya mətbuatına istinadən yaydığı xəbərə görə, "mankunyanlar" portuqaliyalı mütəxəssisə 24 milyon funt-sterlinq (təqribən 27 milyon avro) ödəməlidir. Çünki 55 yaşlı məşqçinin Mançseter təmsilçisi ilə müqavilə müddəti 2020-ci ilin yayına qədər idi. Mourinyo qış fasiləsindən sonra istefaya göndərilsəydi, ona ödəniləcək təzminat xeyli az olacaqdı - 18 milyon funt-sterlinq (təqribən 20 milyon avro).

## "Anderlext" baş məşqçisini qovub



Belçikanın "Anderlext" klubu baş məşqçisi Heyn Vanhazebrukla yolları ayırıb. Klubun saytında yer alan xəbərə görə, 54 yaşlı mütəxəssis Avropa Liqasının qrup mərhələsində uğursuz çıxışdan sonra istefaya göndərilib. Yeni baş məşqçi müəyyənləşənədək komandaya Kərim Belhosin rəhbərlik edəcək.

"Anderlext" Avropa Liqasında yer aldığı D qrupunda 3 xalla sonuncu yeri tutub. Komanda keçirdiyi 6 oyunda cəmi 2 qol vurub. Qeyd edək ki, Vanhazebruk 2017-ci ilin oktyabrından "Anderlext"ə rəhbərlik edirdi.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500